## SON BİR İLDƏ: PREZİDENTİN FƏALİYYƏTİNİN BAŞLICA MƏQAMLARI

Dünyada ölkə başçılarının fəaliyyətlərinin müəyyən dövrlər üzrə qiymətləndirilməsi bir ənənəyə çevrilib. Bu sırada prezidentlərin birillik fəaliyyəti xüsusi yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin də növbəti dəfə Prezident seçilməsindən bir il ötür. Bununla bağlı ekspertlər geniş analizlər aparırlar. Onların təhlili göstərir ki, keçən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlara imza atıb. Bütün sahələr üzrə həyata keçirilən proqramlar...



Bax səh. 3

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA RUSİYA FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKO İLƏ GÖRÜŞÜB

Aprelin 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva...



Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 13 aprel 2019-cu il, şənbə / № 066 (5441). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Astara rayonunun Diqo, Dolu və Sekaşan kəndlərinin elektrik enerjisi ilə təchizatı haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Valentina İvanovna Matviyenkonun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

### Türkiyə KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin bir illdəki uğurlu fəaliyyəti barədə geniş məlumat yayıb

Dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin bir ili ilə bağlı Türkiyənin nüfuzlu KİV-ləri, o cümlədən geniş tamaşaçı auditoriyasına malik televiziya kanalları...



Bax səh. 2

### Heydər Əliyev Fondunun və Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilib

Aprelin 12-də Heydər Əliyev Fondunun və Fövqəladə Hallar Nazirliyinin (FHN) birgə təşkilatçılığı ilə Sumqayıt şəhər general Məhəmməd Əsədov adına İnteqrasiya təmayüllü internat tipli və Sumqayıt şəhər internat tipli gimnaziyaların şagirdləri FHN Akademiyasının fəaliyyəti ilə tanış olublar. FHN-dən AZƏRTAC-a bildiriblər ki, tədbirin məqsədi gimnaziyaların şagirdlərinin Fövqəladə Hallar Nazirliyinin, o cümlədən FHN Akademiyasının fəaliyyəti barədə məlumatlandırılması, onlarda fövqəladə hallar orqanlarında xidmətə maraq yaradılması və peşə seçiminə kömək etmək olub. Heydər Əliyev Fondunun nümayəndəsinin iştirakı ilə keçirilən tədbirə gimnaziyaların yuxarı sinif şagirdləri qatılıblar. Əvvəlcə qonaqlar Akademiyada fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Burada şagirdlərə Ümummilli Liderin...

Bax səh. 4





## "QRİQORİAN KİLSƏSİ SƏFƏVİLƏR DÖVLƏTİNƏ QARŞI CASUSLUQ ALƏTİ KİMİ" KİTABI İNGİLİS DİLİNDƏ

Azərbaycan Dövlət Tərcümə Mərkəzi erməni xislətinin tarixi gizlinlərini üzə çıxaran "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" kitabını (müəllif - akademik Ramiz Mehdiyev) ingilis dilində nəşr edib.

Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Qriqorian kilsəsinin Səfəvilər dövlətinə qarşı siyasi-ideoloji fəaliyyətinin araşdırılması istiqamətində ilk elmi tədqiqat işi olan əsər dövrün mənzərəsini, siyasi-ictimai proseslərin alt qatında baş verənləri ardıcıl şəkildə, tarixi dəlillər və faktlarla əks etdirir, XVII-XVIII əsrlərdə Vatikan tərəfindən Səfəvilər dövlətinə qarşı yönəldilmiş ideoloji casusluq fəaliyyəti, Qriqorian kilsəsinin bu çirkin oyunlarda katolik missiyalarla əlaqəsi, eləcə də Səfəvi şahlarının törədilən təxribatlara qarşı mübarizəsi maraqlı təhlillərlə işıqlandırılır.

Kitab - tarixçilər, politoloq və şərqşünaslar, eləcə də Səfəvilər dövlətinin, Qriqorian kilsəsinin tarixi ilə maraqlananlar üçün qiymətli elmi mənbədir.

## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DİNAMİK XARAKTER DAŞIYIR

...Qaçqın və məcburi köçkünlərə qayğı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Aprelin 5-də Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilməsi də bu qayğının ifadəsidir. Qeyd edim ki, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji kursa uyğun olaraq respublikamızda qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Bunlar arasında da qaçqın və məcburi köçkünlər, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələri ön sırada dayanırlar. Çünki qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli daim dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Ötən illər ərzində ölkəmizdə qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb. Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır...

Bax səh. 6





## "AZƏRBAYCAN VƏ BÖYÜK BRİTANİYA ƏMƏKDAŞLIĞININ 100 İLLİYİ" KİTABININ TƏQDİMATI OLUB

Aprelin 12-də Bakıda "Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi" adlı kitabın təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, kitabın müəllifi, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə...

Bax səh. 4

### Şamaxıda operativ müşavirə keçirilib

Fevralın 5-də və 6-da Şamaxı, Ağsu və İsmayıllı rayonlarının ərazisində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar aprelin 12-də Şamaxıda operativ müşavirə keçirilib. Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki...



Bax səh. 4

### *Valentina Matviyenko:* Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı faydalı və qarşılıqlı hörmətə əsaslanan münasibətlərdir

Keçən ilin sentyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfər edib. Bu, ölkələrimizin ikitərəfli...



Bax səh. 5

### Azərbaycan və Çin üçün dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsi fundamental əhəmiyyət kəsb edir

Azərbaycan və Çin üçün dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi...



Bax səh. 5

### ADU-da "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda elmi konfrans keçirilib

Aprelin 12-də Azərbaycan Dillər Universitetində (ADU) "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda respublika elmi konfransı keçirilib...



Bax səh. 7

# Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, xanım Valentina Matviyenkonu və nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib: **“Hörmətli Valentina İvanovna, hörmətli qonaqlar.**

**Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizə çox şadam. Siz Azərbaycana belə geniştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. İlk növbədə, Sizi bu yaxınlarda qeyd edilən yubileyiniz münasibətilə şəxsən təbrik etmək istərdim. Mən Sizə təbrik məktubu göndərmişdim və bir daha şəxsən təbrik etmək, ən xoş arzularımı bildirmək və işinizdə uğurlar arzulamaq istərdim.**







**Əlbəttə, biz çox şadıq ki, yubileydən az sonra Siz bizim ölkəmizi ziyarət edirsiniz. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcək. Əlaqələr çoxplanlıdır, həyatın demək olar ki, bütün sahələrini əhatə edir və yaxşı dinamikaya malikdir. Biz siyasi sahədə fəal qarşılıqlı fəaliyyət göstəririk, iqtisadi potensialı artırırıq, uğurla həyata keçirilən iqtisadi, nəqliyyat, energetika sahələrində əməkdaşlıq üzrə bir neçə yol xəritəsi mövcuddur. Təsadüfi deyil ki, hər iki tərəf ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi dəyərləndirir”.**

İkitərəfli münasibətlərin inkişafında humanitar sahənin xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev bu işdə Bakı Humanitar Forumunun rolunu qeyd edib, təhsil, mədəniyyət, elm sahələrində sıx əlaqələrin mövcud olmasından məmnunluğunu bildirib. Dövlətimizin başçısı Şimal-Cənub dəhlizi ilə bağlı birgə fəaliyyətin də iqtisadi əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını deyib. Prezident İlham Əliyev, eyni zamanda, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin inkişafına töhfə verdiyini vurğulayıb. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

* * *

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko deyib: **“Çox sağ olun, çox hörmətli cənab Prezident.**

**İlk növbədə, bizim nümayəndə heyətini qəbul etdiyinizə, parlamentlərarası əməkdaşlığa göstərdiyiniz diqqət və dəstəyə görə səmimi qəlbdən Sizə təşəkkür etmək istəyirəm. Biz sizin gözəl ölkənizdə həmişəki kimi diqqət, qonaqpərvərlik, qayğı ilə əhatə olunmuşuq. Əminəm ki, nümayəndə heyətinin bütün üzvləri üçün, - onların əksəriyyəti ilk dəfədir ki, Azərbaycandadır, - bu səfər yaddaqalan olacaq. İlk növbədə, demək istəyirəm ki, səfərdən əvvəl mən Vladimir Vladimiroviç Putinlə görüşdüm. O, xahiş etdi ki, böyük salamlarını, ən xoş arzularını Sizə çatdırım. O, bir qədər əvvəl - aprelin 2-də Sizinlə olan telefon söhbətini də xatırladı. Bu sözləri Sizə məmnunluqla çatdırıram”.**

**Prezident İlham Əliyev:** Mənim də ən xoş arzularımı və böyük salamlarımı Vladimir Vladimiroviçə çatdırın.

Xanım Valentina Matviyenko: **“Sağ olun. Mən salamlarınızı mütləq çatdıracağam. Çox hörmətli İlham Heydəroğlu, Sizinlə şəxsən görüşməkdən çox məmnunam. Həmişə bu görüşləri xatırlayıram. Bakının necə inkişaf etməsinə heyran qaldığımı növbəti dəfə bildirməyə bilmərəm. Mən Bakıda, Azərbaycanda 5 il idi ki, olmamışdım. Çox böyük dəyişiklər var - heyrətamiz, yeni binalar, nadir memarlıq nümunələri. Bilirsiniz, düşünürəm ki, əgər Heydər Əliyev sağ olsaydı, Azərbaycanda baş verən bu dəyişikliklərlə çox fəxr edərdi. Həqiqətən də, mən çox yerlərdə, dünyanın bir çox ölkələrində olmuşam, bu cür dinamik, düşünülmüş inkişafa, belə gözəlliyə çox az yerdə rast gəlinir. Bizim səfər əlamətdar vaxta təsadüf edir. Düz bir il əvvəl Siz prezident seçkilərində inamlı qələbə qazandınız. Azərbaycan vətəndaşlarının mütləq əksəriyyəti Sizə, Sizin daxili və xarici siyasi kursunuza güclü dəstək verdi. Bu qələbə həqiqətən olduqca layiqli və inamlı idi. Siz artıq qeyd etdiniz ki, Rusiya-Azərbaycan münasibətləri bütün sahələrdə dinamik inkişaf edir, strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Bu əlaqələrin, bu kursun bünövrəsini çox hörmətli Heydər Əliyev qoyub. Əlbəttə, Rusiya-Azərbaycan münasibətlərində həlledici rol bizim ölkələrin liderlərinə, prezidentlərinə məxsusdur. Bilirik ki, Sizin ölkənizlə əməkdaşlığın genişləndirilməsinə böyük maraq var, çünki Sizin ölkədə sabitlik var, siyasi, sosial sabit vəziyyət, ölkənin iqtisadi inkişafının yaxşı dinamikası mövcuddur”.**

Turizm sahəsində iki ölkə arasında əlaqələrin inkişafına toxunan Valentina Matviyenko deyib: **“Bizim əməkdaşlığımızın yaxşı ab-havasının əlaməti odur ki, Rusiyadan Azərbaycana gələn turistlərin axını əhəmiyyətli dərəcədə artıb. Ötən il 800 min rusiyalı gəlib. Düşünürəm ki, bu rəqəm ildən-ilə artacaq”.**

Valentina Matviyenko Azərbaycanda rus dilinə olan münasibətlə bağlı bildirib: **“Rus dilinə, mədəniyyətinə olan münasibətə, Azərbaycanda rus dilinin qorunub saxlanmasına yaradılan şəraitə görə Sizə dərin təşəkkürümü bildirirəm”.**



Valentina Matviyenko iki ölkə arasında humanitar, mədəni, informasiya, təhsil sahələrində əlaqələrin uğurla inkişaf etdiyini bildirib, tələbə mübadiləsi proqramının reallışdırıldığını vurğulayıb, ölkəmizdə Rusiya Mədəniyyəti Günlərinin keçirilməsinin önəminə toxunub. Qonaq ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da böyük töhfə verdiyini qeyd edərək deyib: **“Humanitar əməkdaşlığın inkişafına Azərbaycanın Birinci vitse-prezidenti, çox hörmətli Mehriban xanımın töhfəsini biz çox yüksək qiymətləndiririk”.**

Valentina Matviyenko Bakı Humanitar Forumunun sivilizasiyalararası dialoqun genişləndirilməsində roluna da toxunub.

Parlamentlərarası münasibətlərdən danışan qonaq bu əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Sonra Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkoya Azərbaycanın “Dostluq” ordenini təqdim edib.

Valentina Matviyenko Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə dövlətimizin başçısının Sərəncamı ilə bu ordenlə təltif olunub.

Azərbaycanın “Dostluq” ordeninə layiq görüldüyündən və bu ordeni Prezident Ilham Əliyevin ona təqdim etməsindən böyük şərəf duyduğunu deyən Valentina Matviyenko qeyd edib ki, özü və Rusiya parlamentariləri bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi işində səylərini əsirgəməyəcəklər.

Dövlətimizin başçısı Valentina Matviyenkonun Azərbaycan-Rusiya əlaqələrinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirib, ona gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb



Aprelin 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonu Azərbaycanda səmimi qəlbdən salamlayaraq, onun ölkəmizdə hər zaman arzuedilən qonaq olduğunu deyib. Mehriban Əliyeva rusiyalı qonağı yubileyi və təltif edildiyi mükafatlar münasibətilə təbrik edib, Valentina Matviyenkoya möhkəm cansağlığı, gələcək fəaliyyətində yeni nailiyyətlər arzulayıb. Birinci vitse-prezident Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin gördüyü işlərin əhəmiyyətini xüsusi vurğulayıb, bu fəaliyyətin Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfə olduğunu deyib.

Azərbaycanda yenidən olmaqdan məmnunluğunu ifadə edən Valentina Matviyenko, ölkəmizə həmişə xoş niyyətlə gəldiyini söyləyib. Qonaq Azərbaycanda göstərilən qonaqpərvərliyə və diqqətə görə minnətdarlığını bildirib. Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşdüyünü, bu görüşün onun üçün böyük şərəf olduğunu bildirib. Qonaq Prezident İlham Əliyev ilə Azərbaycan-Rusiya əlaqələrinin gələcək inkişafına dair fikir mübadiləsinin aparıldığını qeyd edib.

# Türkiyə KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin bir ildəki uğurlu fəaliyyəti barədə geniş məlumat yayıb

Dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin bir ili ilə bağlı Türkiyənin nüfuzlu KİV-ləri, o cümlədən geniş tamaşaçı auditoriyasına malik televiziya kanalları və xəbər portalları ətraflı məlumatlar yayıb.



TÜRKİYE DÜNYA EKONOMİ SPOR ANALİZ İNFOGRAFİK KÜLTÜR SANAT VİDEO FOTOĞRAF

DÜNYA

**Azerbaycanlılar Aliyev'in reformlarını destekliyor**

Fransız anket şirketinin yaptığı araştırmaya göre, Azerbaycanlıların yüzde 90,5'i Aliyev'in siyasi, ekonomik, sosyal, adli, eğitim ve sağlık gibi alanlardaki reformlarını ve sosyal politikalarını olumlu buluyor.

Ruslan Rehimov | 10.04.2019

Baki

**Azerbaycan**'da yapılan anket çalışması, halkın büyük çoğunluğunun **Cumhurbaşkanı İlham Aliyev**'in politikalarını beğendiğini ve son dönemde başlatılan reform çalışmalarını olumlu karşıladığını ortaya koydu.

Fransa merkezli anket şirketinin yaptığı araştırmaya göre, Aliyev'in son bir yılda başlattığı siyasi, ekonomik, sosyal, yasal, eğitim ve sağlık gibi alanlardaki reform ve sosyal politikalar, Azerbaycan halkı tarafından beğeniyle

Analiz

ABD'nin Devrim Muhafızları kararı ve araçsallaşan terör

İsrail siyaseti aşırı sağa teslim

GÖRÜŞ - Mehmet Akif ve Bosna-Hersek

Trump'ın Devrim Muhafızları kararı ve muhtemel sonuçları

İlhan Omar'a yönelik medya saldırısı şaşırtıcı değil

AZƏRTAC xəbər verir ki, məlumatlarda Fransanın nüfuzlu və peşəkar tədqiqat mərkəzlərindən biri olan “Opinion Way” şirkətinin Azərbaycan Prezidentinin son 1 il ərzindəki fəaliyyəti ilə bağlı keçirdiyi rəy sorğusunun nəticələrinə istinad edilib. Bildirilir ki, “Opinion Way” şirkətinin ünvanladığı “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz” sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib.

Anadolu Agentliyi, “Ülke TV”, “CNN Türk TV” kanalları, www.yeniakit.com.tr, www.timeturk.com, www.4haber.com, www.tbajansi.com və digər nüfuzlu xəbər saytları türkdilli oxucuların diqqətinə çatdırıb ki, “Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz” sualını respondentlərin 85,1 faizi bütövlükdə yüksək dəyərləndirib.

“Ülke TV” və “CNN Türk TV” kanallarının yaydığı reportajda qeyd olunub ki, 2018-ci il aprelin 11-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyev seçicilərin 86,02 faizinin səsini qazanaraq dövlət başçısı seçilib. Reportajda və yazılı məlumatlarda 2003-cü ildə İlham Əliyevin ilk dəfə prezidentliyə namizədliyi ilə Azərbaycanda yaşanan seçki həyəcanından da bəhs olunub. Teleaparıcılar şərhlərində qeyd ediblər ki, Azərbaycan xalqı tərəfindən Prezident İlham Əliyev ölkədə verdiyi vədləri yerinə yetirən dövlət başçısı imici qazanıb.

Məlumat verilir ki, 2003-cü ildə Azərbaycan xalqının dəstəyini qazanan Prezident İlham Əliyev ölkədə ümumi daxili məhsulun 3,2 dəfə artmasına nail olub. Ötən dövrdə Azərbaycanda 15 min kilometr avtomobil yolu salınıb, ölkə iqtisadiyyatına 250 milyard ABŞ dolları sərmayə yatırılıb, valyuta ehtiyatı 24 dəfə artıb, 2 milyon iş yeri açılıb. Azərbaycan valyuta ehtiyatlarını 45 milyard ABŞ dollarına çatdırıb.

Qeyd olunub ki, ölkədə bütün sahələr üzrə uğurlu islahatlar aparılır. Bunun nəticəsidir ki, Dünya Bankının hesabatına görə, Azərbaycan əvvəlki hesabatla müqayisədə 32 pillə irəliləyərək 25-ci yerdə qərar tutub. Prezident İlham Əliyevin xalqın arasında olması Türkiyə KİV-ləri tərəfindən xüsusilə təqdirəlayiq hal kimi dəyərləndirilib. Bildirilib ki, ölkəni rayon-rayon gəzən Prezident vətəndaşlarla görüşür, insanları dinləyir, onlarla səmimi söhbət edir. Prezident İlham Əliyev şəhid ailələri ilə bir-bir ünsiyyətdə olur, onları dəstəkləyir, problemlərini həll edir.

Məlumatlarda dövlət başçısının illik fəaliyyətinə nəzər yetirilib. Diqqətə çatdırılıb ki, bir il ərzində 118 min yeni iş yeri açılıb. İşsizliyin aradan qaldırılması üçün əsaslı zəmin yaradılıb. İki peykə sahib olan Azərbaycan ötən il üçüncü peykini də orbitə çıxarıb.

Reportajda Azərbaycanın ordu quruculuğu sahəsində qazandığı uğurlardan da bəhs edilib. Bildirilir ki, təkcə bir həmlə ilə Naxçıvanın Günnüt kəndi Ermənistanın işğalından azad olunub, 11 min hektar ərazi düşməndən təmizlənib. Son bir ildə görülən işlər sırasında TANAP xəttinin istifadəyə verilməsinə də yer ayrılıb.

Televiziya reportajlarında paytaxt Bakının müasir görkəmini, Azərbaycanın ayrı-ayrı bölgələrini, ölkəmizin füsunkar gözəlliyini, habelə Prezident İlham Əliyevin ictimaiyyət nümayəndələri ilə görüşlərini, beynəlxalq tədbirlərdə iştirakını əks etdirən kadrlardan istifadə olunub.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev Türkiyə KİV-lərinin haqqında ən çox məlumat yaydığı xarici dövlət başçısıdır.

Martın 14-də Azərbaycanın paytaxtında keçirilən VII Qlobal Bakı Forumu və Prezident İlham Əliyevin Forumun açılış mərasimindəki dərin məzmunlu nitqi, dövlətimizin başçısının Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki, ölkədə həyata keçiriləcək islahatlar barədə mesajları, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşməsi qardaş ölkənin aparıcı KİV-lərinin diqqət mərkəzində olub. Bütün bu məlumatlar adlarını yuxarıda qeyd etdiyimiz KİV-lərlə yanaşı, nüfuzlu İhlas Xəbər Agentliyinin (İHA) saytında, çoxtirajlı “Hürriyyət”, “Yeni akıt”, “Yeni Şəfəq” və başqa qəzetlərdə, Türkiyənin Avrasiya Araşdırmalar Mərkəzinin rəsmi saytı www.avim.org.tr, “TRT AVAZ” və digər əsaslı xəbər mənbələrində özünə yer alıb.

# Son bir ildə: Prezidentin fəaliyyətinin başlıca məqamları




Dünyada ölkə başçılarının fəaliyyətlərinin müəyyən dövrlər üzrə qiymətləndirilməsi bir ənənəyə çevrilib. Bu sırada prezidentlərin birillik fəaliyyəti xüsusi yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin də növbəti dəfə Prezident seçilməsindən bir il ötür. Bununla bağlı ekspertlər geniş analizlər aparırlar. Onların təhlili göstərir ki, keçən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlara imza atıb. Bütün sahələr üzrə həyata keçirilən proqramlar, islahatların davam etdirilməsi konkret müsbət nəticələr verib. Vurğulayaq ki, Azərbaycan Prezidentinin birillik fəaliyyətinə beynəlxalq təşkilatlar və ekspertlər də ciddi maraq göstəriblər. Onların da fikrinə görə, Prezident İlham Əliyev olduqca uğurlu siyasi kurs reallaşdırır. Biz vurğulanan məqamlar kontekstində dövlət başçısının ötən bir ildəki uğurlu fəaliyyətinin analizi üzərində daha geniş dayanmağa böyük ehtiyac görürük.

## YÜKSƏK ETİMAD: DEMOKRATİK SEÇKİDƏ İNAMLI QƏLƏBƏ QAZANAN LİDER

İlham Əliyevin növbəti dəfə Prezident seçilməsindən bir il ötür. Ekspertlər bu müddəti analiz edir, qiymətləndirmələr aparır və proqnozlar verirlər. Bir sıra xarici ekspertlər və təşkilatlar da Azərbaycan Prezidentinin fəaliyyəti barədə öz fikirlərini ifadə edirlər. Aparılan müqayisələr, gətirilən faktlar, həyata keçirilən proqramlar sübut edir ki, ölkə rəhbərinin son bir ildəki fəaliyyəti tamamilə uğurlu olub. Müstəqil dövlət quruculuğu prosesi məzmunca yeni səviyyəyə yüksəlib. Bu, daxili və xarici siyasətə eyni dərəcədə aiddir. Əldə olunan nəticələrin işığında həmin qənaətin doğruluğuna tam əminlik yaranır.

Hər şeydən öncə, bir il əvvəl keçirilən seçkinin demokratikliyi və şəffaflığını vurğulamaq lazımdır. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, yüksək seçki mədəniyyətinə malikdir. Seçkidə iştirak edən bütün namizədlər üçün geniş təbliğat imkanları yaradılmışdı. Ölkə KİV-ləri bərabər şərtlər daxilində onların hər birinin rahat qaydada fikrini ifadə etməsi, mövqeyini açıqlaması üçün şans verirdi. Seçki günü də proses tam demokratik ruhda, sabitlik mühitində keçdi. Seçici azad surətdə layiq bildiyi namizədə səs verdi. Səsvermənin nəticəsinə görə, İlham Əliyev bütün rəqiblərini qabaqladı - 86,02 faiz səs topladı. Bu, vətəndaşların Prezidentə olan yüksək etimadının birbaşa göstəricisi idi.

Prezident İlham Əliyev xalqın tam dəstəyini hiss edərək, böyük fəallıqla ölkəyə rəhbərlik etməkdədir. Keçən müddət ərzində bütün istiqamətlərdə böyük proqramlar həyata keçirilib, islahatlar aparılıb. Daxili və xarici siyasətdə uğurlar qazanılıb. Onların analizi göstərir ki, müstəqil dövlət quruculuğu faktiki olaraq yeni səviyyəyə yüksəlib və bu prosesin böyük perspektivi vardır.

Son bir ildə ölkədə əhalinin sosial rifahının yüksəldilməsi və sosial təminatın daha da inkişaf etdirilməsi istiqamətlərində ciddi addımlar atılıb. Azərbaycan sözün həqiqi mənasında sosial dövlət olduğunu dünyaya bir daha nümayiş etdirib. Prezident İlham Əliyev şəhid ailələrinə, müharibə veteranlarına və əlillərə daim diqqət və qayğı göstərib. Təsadüfi deyil ki, keçən il Prezident seçkilərindən sonra imzalanan ilk Fərman şəhid ailələrinə birdəfəlik 11 min manat məbləğində ödəmənin verilməsi ilə bağlı oldu.

Sonrakı Fərmanla şəhid ailələrinə verilən müavinət 242 manatdan 300 manata qaldırıldı. Bundan başqa, Əfqanıstanda həlak olanların ailələri üçün müavinət də 300 manat oldu. 2018-2019-cu illərdə şəhid ailələrinə 1426 mənzil verilməsi nəzərdə tutulmuşdu ki, onun da 700-ə yaxını artıq verilib.

Məcburi köçkünlər daim Azərbaycan Prezidentinin diqqət mərkəzində olub. Son bir ildə həmin sahədə də sosial islahatlar davam edib. Məsələn, bu günlərdə Prezident İlham Əliyev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün istifadəyə verilən yeni yaşayış kompleksini açdı. Bu, sayca ölkə üzrə məcburi köçkünlər üçün salınan 103-cü müasir yaşayış kompleksidir. Təkcə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib.

Son bir ilin təcrübəsi onu da təsdiq etdi ki, dövlət başçısı daim ölkə vətəndaşının yanındadır. Bu il Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələ nəticəsində insanlara dəyən ziyanın kompensasiya edilməsi üçün lazımi addımların atılması barədə Prezident göstərişlər verdi. Şəxsən Özü təbii fəlakətlərin olduğu yerlərə gedib, insanlarla ünsiyyətdə oldu. Qeyd edək ki, bu səfərlər onu da göstərdi ki, xalqın öz rəhbərinə dərin hörməti var və onun apardığı siyasəti tam dəstəkləyir.

Mütəxəssislər bütövlükdə Prezidentin son Fərman, Sərəncam və qərarlarının hər birini sosial inqilab kimi dəyərləndirirlər. Ölkə rəhbəri vurğulayır ki, maliyyə imkanları möhkəmlənən ölkəmizdə hazırlanan sosial paketdə daha ciddi islahatlar nəzərdə tutulur. Bu kontekstdə onu da vurğulamaq gərəkdir ki, Dünya Bankı tərəfindən açıqlanan “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti kimi göstərilib. Hətta Azərbaycan ən çox islahat aparan ölkə kimi qiymətləndirilib. Hesabatda Azərbaycan 190 ölkə arasında 25-ci yerdə göstərilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son bir ildə Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurları Avropa Yenidənqurma və İnkişaf Bankı da yüksək qiymətləndirib. Davos İqtisadi Forumunun “Qlobal Rəqabətlilik 2019” hesabatına əsasən isə Azərbaycan 140 ölkə arasında 12-ci yeri tutur.

Azərbaycan Prezidentinin son bir ildə əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirdiyini təsdiqləyən faktlar sırasında 2019-cu ilin fevral ayında imzaladığı “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” və “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərmanlarını ayrıca vurğulamaq lazımdır. Çünki hər iki məsələ cəmiyyət üçün aktuallıq kəsb edirdi və dövlət başçısı zamanında buna reaksiya verdi. Təbii ki, cəmiyyət ölkə rəhbərinin bur qayğısını yüksək qiymətləndirir.

Əlbəttə, Prezidentin atdığı addımlar bütövlükdə ölkənin sosial-iqtisadi inkişafı üçün ciddi təkandır. Bu baxımdan son bir ildə reallaşan iqtisadi islahatlar, gömrük və vergi sahəsində atılan addımlar büdcə daxilolmalarına öz müsbət təsirini göstərib. Belə ki, 2019-cu ilin birinci ayında vergi orqanları büdcəyə plandan əlavə 80 milyon manatdan çox, gömrük orqanları isə 20 milyon manatdan çox vəsait keçiriblər.

Bunlarla yanaşı, keçən bir il müddətində sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu addım həm sahibkarların daha sərbəst fəaliyyətini təmin edir, həm də Azərbaycanda sərmayə qoyuluşu üçün uyğun mühitin mövcudluğu təsdiq olunur. Sirr deyil ki, hazırda müstəqilliyini əldə etmiş bir çox dövlətlərə xarici investorlar sərmayə qoymağa risk etmirlər. Onlar etibarlı mühit və yüksək təminat istəyirlər. Azərbaycanda belə bir mühitin olduğunu indi hər kəs qəbul edir. Bu səbəbdəndir ki, son bir ildə də Azərbaycan regionda ən çox xarici sərmayə qoyulan ölkə statusunu qoruyub saxlaya bilib. Cənubi Qafqazın digər ölkələrinə sərmayə qoyuluşu yüksək deyil.

Qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması da son bir ilin nailiyyətləri sırasında özəl yer tutur. Bu məsələ həm iqtisadiyyatın şaxələnməsi, həm də innovasiyaların çevik şəkildə müxtəlif sahələrə tətbiq edilməsi aspektində önəm kəsb edir. Buraya ixrac əməliyyatlarının maliyyələşdirilməsini və real sektora investisiya qoyuluşlarının sürətləndirilməsini də əlavə edə bilərik. Özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində atılan mühüm addımları da unutmaq olmaz.

## İQTİSADİYYAT VƏ ÖZƏL SEKTOR: SƏMƏRƏLİ PROQRAMLAR, REAL İSLAHATLAR...

Bütün bunların reallaşmasında İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun təsis edilməsinin (dövlət başçısının 2018-ci il 31 iyul tarixli Fərmanı ilə) ciddi rolu olduğunu qeyd etmək gərəkdir. Mütəxəssislər əmindirlər ki, Fondun yaradılması həm də sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilməsində mühüm əhəmiyyət daşıyır. Rəqəmlər bu fikri təsdiq edir. Belə ki, 2018-ci ildə Fondun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb. Bundan başqa, İpoteka və Kredit Zəmanəti Fondu ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib. Həmin Fond 17,0 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib.

Əlamətdardır ki, Prezident Azərbaycan sahibkarlarına xarici ölkələrə ixrac missiyalarını genişləndirmək sahəsində də ciddi dəstək verib. Bunun üçün artıq Belarus, Çin, Ukrayna, Latviya və Polşada Azərbaycan Ticarət evləri fəaliyyətə başlayıb. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada da Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Ötən bir ildə sənaye potensialının inkişafı ilə bağlı əhəmiyyətli addımlar atılıb. Nəticədə, həmin sahədə göstəricilərin yüksək dinamikasına nail olunub. Bütövlükdə keçən müddətdə sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artıb. Bu bağlılıqda investisiya təşviqi proqramının həyata keçirilməsi maraq kəsb edir. Həmin çərçivədə həyata keçirilən layihələrin dəyəri artıq 2,8 milyard manatdır. Etiraf etmək lazımdır ki, bu, kifayət qədər yüksək rəqəm olmaqla hətta bir sıra ölkələrin dövlət büdcəsindən belə çoxdur.

Sirr deyil ki, Prezident İlham Əliyev həmişə regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirib. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları qeyri-neft sektorunun inkişafına və regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə böyük yardım göstərir. O cümlədən sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması və investisiya qoyuluşunun artması prosesi gedir. Regionlarda yeni müəssisələrin, iş yerlərinin açılması və əhalinin məşğulluğunun artırılması üçün çox əlverişli şərait yaranır. Bunun nəticəsində bütövlükdə yoxsulluq səviyyəsi sürətlə azalır.

Məsələn, son bir ildə regionların III sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bölgələrdə əhəmiyyətli infrastruktur layihələri icra edilib. Bunlarla yanaşı, regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı Prezident İlham Əliyevin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilib. Yalnız 2018-ci ildə Prezident ölkənin bölgələrinə 24 səfər edib.

Nəhayət, regionlarla bağlı vəziyyətdə aqrar sahə ayrıca vurğulanmalıdır. 2018-ci ildə kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilib. Prezidentin birbaşa tapşırığı ilə pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi naminə həyata keçirilən proqramlar öz müsbət nəticələrini verməkdədir. Bunlardan başqa, regionlarda “ASAN xidmət” mərkəzləri açılıb və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) yaradılıb.

Bütün bunlar Prezidentin daxili siyasətdə həyata keçirdiyi proqramların yalnız bir qismidir. Onu vurğulayaq ki, xarici sosioloji araşdırma mərkəzləri də dövlət başçısının fəaliyyətinə böyük maraq göstərirlər. Məsələn, Fransanın “Opinion Way” şirkəti 2019-cu ilin mart ayında Azərbaycanda rəy sorğusu keçirib. Verilən suallardan biri belə olub: “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları necə qiymətləndirirsiniz?”. Sorğuda iştirak edənlərin 90,5 faizi bu suala müsbət cavab verib. Ümumilikdə respondentlərin 85,1 faizi Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri müsbət qiymətləndirdiyini bildirib.

## XARİCİ SİYASƏT: FİTRİ DİPLOMATİYA NƏZAKƏTİNƏ VƏ DİPLOMATİKLİK İSTEDADINA MALİK PREZİDENT

Aparılan sosioloji araşdırma cəmiyyətin xarici siyasətdə atılan addımları da tam dəstəklədiyini nümayiş etdirib. Bu sırada Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanması ayrıca vurğulanmalıdır. Bu sənədin imzalanmasında Azərbaycanın tutduğu ədalətli və obyektiv mövqe böyük rol oynayıb. Prezident İlham Əliyev bununla bağlı ifadə edib: **“Bu gün Xəzərdə təhlükəsizlik və sabitlik bizim imzaladığımız Konvensiya ilə müəyyən olunur”.**

Əlbəttə, son bir ildə xarici siyasətin bütün prioritet istiqamətlərində uğurlu addımlar atılıb. Bütövlükdə milli maraqlara söykənən xarici siyasət kursu davam etdirilib. Müxtəlif formatlar çərçivəsində aparılan danışıqlar nəticəsində ölkəmizin dünya birliyində nüfuzu daha da artıb. Həmin danışıqlar dünyanın bir çox dövlətləri ilə həyata keçirilib. Bundan başqa, beynəlxalq tədbirlər çərçivəsində mühüm müzakirələr həyata keçirilib. Xarici ölkələrə edilən səfərlər bu aspektdə ciddi rol oynayıb. Prezident İlham Əliyev 2018-ci ildə xarici ölkələrə 16 səfər edib. Eyni zamanda, xarici ölkələrin 16 dövlət və hökumət başçısı həmin il Azərbaycana səfərə gəlib.

Dövlət başçısı İlham Əliyevin reallaşdırdığı uğurlu xarici siyasət Azərbaycanın dünya dövlətləri və beynəlxalq güc mərkəzləri ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətlərini daha da möhkəmləndirməyə xidmət edib. Azərbaycanla Avropa İttifaqı arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açan tərəfdaşlıq sazişinin imzalanması üzərində iş gedir. Sənədin bu il imzalanacağı gözlənilir.

Qeyd etmək lazımdır ki, Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın prioritetlərinə dair 2018-ci il iyulun 11-də sənəd imzalanıb. Həmin sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də yer alıb. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunub. Bundan başqa, NATO-nun Brüssel zirvə görüşündə qəbul edilən yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü dəstəklənib.

Təbii ki, son bir ildə Prezident İlham Əliyev xarici siyasətdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə xüsusi diqqət yetirib. Aktiv diplomatik fəaliyyət nəticəsində Ermənistanın yeni rəhbərliyinin danışıqların formatını dəyişdirmək cəhdlərinin qarşısı alınıb. Vyanada baş tutan müzakirələrdə bu fakt öz təsdiqini tapıb. Azərbaycan Dağlıq Qarabağ separatçılarının danışıqlarda iştirakına imkan verməyib.

Xarici siyasətin uğurlarından biri də 2018-ci ildə Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində konfransın keçirilməsidir. 2019-cu ildə isə Azərbaycanda Qoşulmama Hərəkatının zirvə görüşü keçiriləcək. Əlbəttə, bu hadisə Azərbaycanın nüfuzunun daha da artmasına xidmət edəcək.

Dövlət başçısının son bir ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması və Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətlərində həyata keçirdiyi proqramları xüsusi qeyd etmək gərəkdir. Azərbaycan Ordusu bu addımların sayəsində daha güclü olub. Onun döyüş imkanları xeyli artıb. Bunu artıq dünyanın böyük dövlətlərinin liderləri belə etiraf edirlər. Ermənistanın Azərbaycana bu sahədə mane olmaq cəhdləri puç olub. Azərbaycan Ordunu ən müasir silahlarla təmin etmək prosesini bütün sürəti ilə davam etdirir. Bu baxımdan 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisinin düşməndən azad edilməsi əlamətdar hadisə kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri 2018-ci ildə dünyada ən güclü 50 ordu sırasında yer tutur.

Ölkə rəhbərinin son bir il ərzində həyata keçirdiyi siyasətə xarici ekspertlər də yüksək qiymət verirlər. Məsələn, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun baş direktoru, politoloq Sergey Markov vurğulayıb ki, son bir ildə Azərbaycanın xarici siyasətində çoxvektorluluq davam edib. Politoloq ifadə edib: **“Azərbaycanın bütün qonşuları ilə - Rusiya, Türkiyə və İranla, habelə iri geosiyasi subyektlərlə - Avropa İttifaqı, ABŞ və Çin ilə çox gözəl münasibətləri var. Avropa İttifaqı ilə “Tərəfdaşlığın prioritetləri haqqında Saziş” imzalanıb. Xəzər dənizinin hüquqi statusuna dair imzalanmış Konvensiya Azərbaycan rəhbərliyinin bu məsələyə yanaşmasını əks etdirir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu yanaşmalar Rusiyanın yanaşmalarına əsla zidd deyil və çox cəhətdən, üst-üstə düşür. Bu, Xəzərdə fəallığın inkişaf etdirilməsi üçün, Xəzər regionunun siyasi mübarizə meydanına çevrilməməsi üçün möhkəm hüquqi təməl yaradır”.**

Rusiyalı ekspert sözlərinə davam edərək bildirib ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin iştirakçılarından biridir. Bundan əlavə, TANAP - Transanadolu qaz kəməri və Cənub Qaz Dəhlizinin inkişaf etdirilməsində Azərbaycanın oynadığı həlledici rolu heç kəs inkar edə bilməz.

S.Markov xüsusi olaraq onu da qeyd edib ki, Azərbaycan regionda dinlərarası münaqişələrdən yan keçməyə nail olub. Bunun səbəbini isə o, belə izah edib: **“Bu, Prezident İlham Əliyevin böyük diplomatiya bacarığına malik olmasının ifadəsidir... Bundan əlavə, o, fitri diplomat nəzakətinə və istedadına malikdir”.**

Ölkəmizin həm münaqişələrə qoşulmamağa, həm də danışıqlar prosesinə kömək etməyə nail olduğunu deyən rusiyalı ekspert fikirlərinin təsdiqi kimi Rusiya və ABŞ-ın hərbi rəhbərlərinin Bakıda apardıqları müzakirələri də göstərir.

S.Markovun fikrincə, Azərbaycanda böyük beynəlxalq forumların, o cümlədən Bakı Humanitar Forumunun keçirilməsi mühüm faktdır, Azərbaycan bu forumlarda əməkdaşlıq və multikulturalizm ideyalarını təbliğ edir. S.Markov vurğulayıb: **“İdentikliklərin qarşı-qarşıya gəldiyi müasir dünyada bu çox vacibdir. Multikulturalizm Azərbaycanın ictimai-dövlət ideologiyasıdır. Bu fakt ölkə daxilində də təzahür edir, burada müxtəlif etnik və dini qruplar arasında vətəndaş həmrəyliyi və dialoq fəal inkişaf edir. Bu multikulturalizm ideologiyasının xarici siyasətdə də tətbiq edilməsi sayəsində Azərbaycan bir-biri ilə münaqişə vəziyyətində olan ölkələr arasında dialoqa kömək edə bilir”.**

Beləliklə, Azərbaycan Prezidentinin son bir ildə göstərdiyi fəaliyyət xalqın doğru seçim etdiyini tam təsdiqləyir. Konkret faktlar sübut edir ki, Azərbaycan bütün istiqamətlərdə ciddi nailiyyətlər əldə edib. Ən əsası isə odur ki, xalq öz rəhbərinə inanır, Onun siyasətini dəstəkləyir və bundan sonra da belə olacaq!

**Newtimes.az**

# “Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi” kitabının təqdimatı olub




















Aprelin 12-də Bakıda “Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi” adlı kitabın təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, kitabın müəllifi, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə Britaniyanın “Senate Publishing” nəşriyyatı tərəfindən çap olunan əsər barədə ətraflı məlumat verib. Bildirib ki, kitabda Azərbaycan ilə Böyük Britaniyanın münasibətləri, eyni zamanda, Azərbaycanın tarixi, mədəni irsi haqqında məlumat verilir. Qeyd edilir ki, Azərbaycan-Böyük Britaniya münasibətlərinin müasir tarixi öz başlanğıcını keçən əsrin 90-cı illərinin əvvəllərindən götürsə də, qısa müddətdə iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə olunub. 1993-cü ildən başlayaraq münasibətlərimizin yüksələn xətt üzrə inkişafı siyasi, iqtisadi, mədəni, təhsil və idman sahələrində əməkdaşlıqda müsbət çalarlarla öz əksini tapıb. R.Hüseynzadə ölkələrimiz arasındakı münasibətlərin müxtəlif sahələri əhatə etdiyini bildirib. Qeyd edib ki, bu əlaqələrin qurulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün bu əlaqələr Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Xarici işlər nazirinin müavini Ramiz Həsənov Azərbaycan ilə Böyük Britaniya arasındakı əlaqələrin tarixindən danışıb. Bildirib ki, bu əlaqələrin dərin tarixi kökləri var. Böyük Britaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk Qərb ölkələrindən biri olub. Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Böyük Britaniyaya səfəri ilə iki ölkə arasında münasibətlər daha da dərinləşdi. Bu gün bu münasibətlər Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ölkələrimiz arasında əlaqələrin daha çox enerji sahəsi ilə bağlı olduğunu deyən R.Həsənov bu münasibətlərin digər sahələrdə də inkişaf etdiyini bildirib. Azərbaycan və Böyük Britaniya təhsil sahəsində də uğurlu əməkdaşlıq edirlər. Çoxsaylı azərbaycanlı tələbələr bu ölkədə təhsil alır. Azərbaycan Böyük Britaniyanın Qafqaz və Xəzər regionunda etibarlı tərəfdaşıdır. Azərbaycan və Böyük Britaniya həm ikitərəfli şəkildə, həm də beynəlxalq təşkilatlar çərçivəsində beynəlxalq təhlükəsizliyin qorunmasına mühüm töhfə verirlər. Azərbaycanda 500-ə yaxın Böyük Britaniya sərmayəli şirkət var və onların arasında qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlərin sayı çoxluq təşkil edir. Mədəni sahədə də mühüm əməkdaşlıq mövcuddur və bu istiqamətdə hər iki ölkədə müntəzəm tədbirlər keçirilir. Bu kitab Böyük Britaniya ictimaiyyətinin Azərbaycanı daha yaxından tanımasına imkan verəcək.

Sonra BP şirkətinin baş icraçı direktoru Bob Dadlinin tədbir iştirakçılarına təbriki səsləndirilib. Təbriki “BP Azerbaijan” şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli oxuyub.

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək ölkələrimiz arasındakı əlaqələrin tarixindən və müasir inkişaf səviyyəsindən danışıb. Qeyd edib ki, ölkələrimiz arasında əlaqələrin tarixi daha qədimlərə, təxminən XVI-XVII əsrlərə gedib çıxır. Müstəqillik dövründə Azərbaycan-Britaniya əlaqələri daha da genişlənib. Bu əlaqələrin inkişafında Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub. Ölkələrimizin münasibətlərində inkişafın yeni mərhələsi Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Prezidentin köməkçisi vurğulayıb ki, Böyük Britaniya Azərbaycanın Avropada ən etibarlı tərəfdaşlarından biridir. Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi, siyasi, sosial və digər sahələrdəki münasibətlər Avropanın başqa ölkələri üçün nümunədir.

Əli Həsənov qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 853-cü qətnaməsi birbaşa Böyük Britaniyanın təşəbbüsü ilə qəbul edilib. Həmin vaxt Böyük Britaniya BMT Təhlükəsizlik Şurasının sədri idi. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı qəbul etdiyi 4 qətnaməyə diqqət yetirsək, görərik ki, məhz 853-cü qətnamə ən dəqiq ifadə ilə erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. **“Düşünürük ki, Böyük Britaniya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində indiyə qədər oynadığı rolu bundan sonra da davam etdirəcək, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq aləmdə tanınmasına, işğal olunmuş torpaqlarımızın azad edilməsinə, bir milyondan çox qaçqın və məcburi köçkünümüzün öz doğma yurdlarına qayıtmalarına dəstək göstərəcək”**, - deyə Əli Həsənov bildirib.

BP-nin Azərbaycanın enerji sektoruna ən çox sərmayə qoyan xarici şirkət olduğunu vurğulayan Prezidentin köməkçisi qeyd edib ki, bu şirkət Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin strateji səviyyəyə yüksəlməsində mühüm rol oynayıb.

“Senate Publishing” nəşriyyatının rəhbəri, Lordlar Palatasının üzvü David Evans iki ölkə arasındakı münasibətlərdən söhbət açıb. Bildirib ki, Azərbaycan və Böyük Britaniya arasında dərin dostluq münasibətləri, sıx iqtisadi əməkdaşlıq əlaqələri var. İki ölkə arasında münasibətlər strateji xarakter daşıyır. Azərbaycan Böyük Britaniyanın parlament dairələrində çox yaxşı tanınır. Azərbaycan-Böyük Britaniya əməkdaşlığı güclü ikitərəfli əlaqələrə, sabit, etibarlı tərəfdaşlığa və investisiyalara əsaslanır. Ölkələrimiz arasında maliyyə, təhsil, mədəni və digər sahələrdə də səmərəli əməkdaşlıq mövcuddur. Əminik ki, səmimi dostluğa söykənən bu münasibətlər bundan sonra da davam etdiriləcək.

# Şamaxıda operativ müşavirə keçirilib

Fevralın 5-də və 6-da Şamaxı, Ağsu və İsmayıllı rayonlarının ərazisində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar aprelin 12-də Şamaxıda operativ müşavirə keçirilib.



Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, müşavirədə fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev iştirak ediblər.

Müşavirənin keçirilməsində məqsəd zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində həyata keçirilmiş tədbirlərin, o cümlədən ziyan çəkmiş vətəndaşların şikayətlərinə baxılması vəziyyətinin, qəzalı evlərin sökülməsi və onların yerində yeni mənzillərin inşası ilə bağlı görülmüş işlərin, həmçinin qarşıya çıxan problemlərin aradan qaldırılması yollarının müzakirəsi olub.

Müşavirədə FHN-in, habelə aidiyyəti dövlət orqanlarının, o cümlədən “Azərenerji”, “Azərişıq” və “Azərsu” Açıq Səhmdar cəmiyyətlərinin məsul şəxsləri də iştirak ediblər.

Fövqəladə hallar naziri K.Heydərov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı zəruri tədbirlərin görülməsi istiqamətində mühüm tapşırıqlar verib. Görülən işlər bilavasitə dövlətimizin başçısının nəzarətindədir.

Nazir təmir-tikinti işləri həyata keçirilərkən aidiyyəti qurumların üzərinə düşən vəzifələrin vaxtında icrasının vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, kommunikasiya xətləri tikinti başlamamışdan əvvəl operativ şəkildə ümumi şəbəkədən ayrılmalı, evlərin tikintisi başa çatdırıldıqdan sonra dərhal qoşulmalıdır. K.Heydərov yeni evlərin tikintisi üçün ayrılmış torpaq sahələrinin sənədləşdirilməsi işinin sürətləndirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Müşavirədə çıxış edən FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov bildirib ki, üç rayon üzrə zəlzələ ilə bağlı ümumilikdə 8891 müraciət daxil olub. Müvafiq komissiyalar tərəfindən indiyədək 8749 müraciətə baxılıb. Onlardan 5435-i Şamaxıda, 2085-i Ağsuda, 1229-u İsmayıllı rayonundadır. Şamaxıda 270, Ağsuda 266, İsmayıllıda 112 evin qəzalı vəziyyətdə olduğu müəyyən edilib. Ümumilikdə 648 qəzalı vəziyyətdə olan ev var. Bu günədək həmin evlərdən 272-si sökülüb. Hazırda digər evlərin podratçı şirkət tərəfindən sökülməsi və onların yerində inşaat işlərinin aparılması üçün hazırlıq işləri görülür. Sürüşmə zonasında yerləşən evlər üçün yeni torpaq sahələri ayrıldıqdan sonra həmin vətəndaşlara da yeni fərdi yaşayış evlərinin tikilməsi nəzərdə tutulur.

Müşavirədə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev çıxış edərək zəlzələnin fəsadlarının aradan qaldırılması, vətəndaşların müraciətlərinə baxılması, şikayətlərin yerində araşdırılması istiqamətində görülən işlərdən danışıblar.

Tədbirdə podratçı tikinti şirkətinin rəhbəri görülən işlər barədə məlumat verib. Bildirib ki, sökülən evlərin yerində iki gün ərzində yeni evin inşasına başlanılır.

Müşavirəyə yekun vuran nazir K.Heydərov diqqətə çatdırıb ki, AMEA-nın Geologiya İnstitutu və rayon icra hakimiyyətləri evlərin inşası üçün yerlərin seçilməsində diqqətli olmalıdırlar. Tikinti aparılarkən evlərin qeyri-sürüşmə zonalarında tikilməsinə xüsusi diqqət yetirilməlidir. Tikinti işləri sürətlə, eyni zamanda, keyfiyyətli aparılmalıdır.

Nazir, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya xüsusi minnətdarlıq edib. O, xatırladıb ki, Mehriban xanım Əliyeva zəlzələ baş verən ilk gündən könüllüləri zəlzələ bölgəsinə göndərib, köməkçisi Anar Ələkbərov bir neçə dəfə bu bölgədə olub. Eləcə də Ağsu, Şamaxı və İsmayıllıda bir neçə evin inşasını Heydər Əliyev Fondu öz üzərinə götürüb. Nazir əlavə edib ki, görülən işlər Prezident İlham Əliyevin xüsusi diqqətindədir. Ona görə də hər bir qurum məsuliyyətini daha da artırmalıdır. Yeni evlərin inşası və bərpası vaxtında başa çatdırılmalıdır ki, zərərçəkən ailələr rahat, gözəl evlərdə yaşasınlar.

Nazir söküntü və tikinti işlərinin plana uyğun olaraq vaxtında icra edilməsi və sentyabradək yekunlaşdırılması üçün aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

# Heydər Əliyev Fondunun və Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilib



Aprelin 12-də Heydər Əliyev Fondunun və Fövqəladə Hallar Nazirliyinin (FHN) birgə təşkilatçılığı ilə Sumqayıt şəhər general Məhəmməd Əsədov adına İnteqrasiya təlimli internat tipli və Sumqayıt şəhər internat tipli gimnaziyaların şagirdləri FHN Akademiyasının fəaliyyəti ilə tanış olublar.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, tədbirin məqsədi gimnaziyaların şagirdlərinin Fövqəladə Hallar Nazirliyinin, o cümlədən FHN Akademiyasının fəaliyyəti barədə məlumatlandırılması, onlarda fövqəladə hallar orqanlarında xidmətə maraq yaradılması və peşə seçiminə kömək etmək olub.

Heydər Əliyev Fondunun nümayəndəsinin iştirakı ilə keçirilən tədbirə gimnaziyaların yuxarı sinif şagirdləri qatılıblar.

Əvvəlcə qonaqlar Akademiyada fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Burada şagirdlərə Ümummilli Liderin həyat və fəaliyyəti barədə ətraflı məlumat verilib, Ulu Öndərin ömür yolu barədə film nümayiş olunub.

Sonra Akademiyanın muzeyi ilə tanış olan şagirdlər Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti ilə bağlı filmə baxıblar.

Akademiyanın konfrans zalında şagirdlərlə görüşən FHN Akademiyasının rəisi, general-mayor Baba Salayev Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunmuş tədbirin əhəmiyyətini vurğulayıb və şagirdlərin gələcək peşə seçimlərində bu görüşün önəmli rol oynayacağına inandığını bildirib.

Tədbirdə şagirdlərə FHN-in fəaliyyəti, strukturuna daxil olan qurumlar, müxtəlif fövqəladə hallar zamanı davranış qaydaları haqqında ətraflı məlumat verilib, onların sualları cavablandırılıb.

Daha sonra yanğın-təlim nöqtəsində yanğınsöndürmə və xilasetmə texnikası ilə tanışlıq olub. Şərti qəzaya uğramış avtomobilin kəsilməsi və xəsarət almış şəxsin çıxarılması, eyni zamanda, şərti yanğının söndürülməsi əməliyyatlarının canlı nümayişini şagirdlər böyük maraqla qarşılayıblar. Şagirdlər kursantların alpinist divarına qalxma məşqini də izləyiblər.

Bundan əlavə, kursantların sıra hazırlığı nümayiş olunub. Şagirdlər də kursantlarla birgə hazırlıqda iştirak ediblər.

Sonra şagirdlər FHN-in İdman-sağlamlıq kompleksindəki idman zalları, müxtəlif idman qurğuları, üzgüçülük hovuzu və trenajor zalı ilə tanış olublar.

Şagirdlər tədbirin sonunda ali təhsil ocağının kursantları ilə birgə nahar ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

# Rusiya Federasiya Şurasının sədri Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko aprelin 12-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Valentina Matviyenko görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə gül dəstələri düzüb.

# Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Şəhidlər xiyabanını ziyarət edib



Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko aprelin 12-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Valentina Matviyenko ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Milli Gimnastika Arenası ilə tanış olub





Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko aprelin 12-də Milli Gimnastika Arenası ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasının direktoru Maqsud Fərzullayev və bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasilyeva Arenada yaradılan şərait barədə Valentina Matviyenkoya ətraflı məlumat veriblər.

Bildirilib ki, 9600 nəfər üçün nəzərdə tutulmuş Milli Gimnastika Arenası iki hissədən ibarətdir. Dünyada analoqu olmayan, xüsusi texnologiya əsasında hazırlanan arenada gündəlik əsasda gimnastların beynəlxalq yarışlara hazırlıq prosesi aparılır. Buradakı gimnastika zalı əsas yarış və köməkçi məşq hissələrindən ibarətdir. Yarışların miqyasından asılı olaraq, arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 10 minə qədər artırmaq mümkündür. Arenada məşqlər üçün nəzərdə tutulmuş zallar, auditoriyalar, atletlər üçün xidmət göstərən yeməkxana mövcuddur. Kompleksdə, həmçinin mətbuat mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Dünyanın ən yaxşı gimnastika komplekslərindən biri olan bu idman qurğusunda otel də yaradılıb.

Məlumat verilib ki, Azərbaycan Gimnastika Federasiyası əhalinin bədən tərbiyəsi və sağlamlıq fəaliyyətinə geniş cəlb edilməsi, milli idman kadrlarının hazırlanması, yığma komandaların formalaşdırılması və hazırlığı, onların beynəlxalq yarışlara, toplanışlara göndərilməsi ilə də fəal şəkildə məşğul olur. Burada 200-ə yaxın 12-13 yaşından yuxarı oğlan və qızlar idmanla yanaşı, Təhsil Nazirliyi ilə razılaşma əsasında öz təhsillərini də davam etdirirlər. Federasiya xarici ölkələrin idman təşkilatları və beynəlxalq idman qurumları ilə də əlaqələrini inkişaf etdirir.

Qeyd olunub ki, Milli Gimnastika Arenası ölkəmizdə bir sıra mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Gimnastikanın müxtəlif növləri üzrə nüfuzlu beynəlxalq turnirlərlə yanaşı, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadasının açılış mərasimi, 2015-ci ildə I Avropa və 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarının gimnastika yarışları, ötən il cüdo üzrə dünya çempionatı bu möhtəşəm arenada təşkil olunub.

Kompleksə tanışlıqdan sonra Valentina Matviyenko bədii gimnastların nümunəvi çıxışlarına baxıb.

Gimnastlarla söhbət edən qonaq Milli Gimnastika Arenasında yaradılan şəraiti yüksək qiymətləndirib, atletlərə uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Valentina Matviyenko: Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı faydalı və qarşılıqlı hörmətə əsaslanan münasibətlərdir



Keçən ilin sentyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfər edib. Bu, ölkələrimizin ikitərəfli münasibətlərində mühüm hadisədir. Həmin səfər zamanı imzalanmış 15 mühüm sənəd 2024-cü ilə qədər olan dövrdə qarşılıqlı əlaqələrimizin genişlənməsi üçün perspektiv imkanlar yaradıb. Bir məqamı qeyd etmək çox vacibdir ki, Rusiya-Azərbaycan əlaqələri qarşılıqlı hörmətə, dostluğa əsaslanır və qarşılıqlı maraqlar nəzərə alınmaqla qurulur. Bu, strateji tərəfdaşlar səviyyəsinə çatmış digər dövlətlər üçün qarşılıqlı faydalı tərəfdaşlıq münasibətləri nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 12-də Azərbaycana rəsmi səfərinin yekunları ilə bağlı mətbuat konfransı keçirən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko söyləyib.

Valentina Matviyenko ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın inkişafından söhbət açaraq qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu sahədə əlaqələrin inkişafına çox böyük töhfə verir.

Federasiya Şurasının sədri vurğulayıb ki, Rusiya-Azərbaycan münasibətləri bütün sahələrdə çox dinamik inkişaf edir. O deyib: **"Biz ticari-iqtisadi, energetika və humanitar sahələrdə yaxşı nəticələr əldə etmişik. Bu, mütəmadi əlaqə saxlayan liderlərimizin böyük xidmətidir. Dövlətlərimizin başçıları Rusiya-Azərbaycan qarşılıqlı əlaqələri üçün xüsusilə əlverişli şərait yaradıblar".**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan xanım Valentina Matviyenko deyib ki, Rusiya bu münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıdır. Bu münaqişənin həlli böyük diplomatik və siyasi uğur olardı.

# Bakıda Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans keçiriləcək




Bakı şəhəri 2019-cu il aprelin 15-17-də daha bir mühüm tədbirə - Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransa (IDEC) ev sahibliyi edəcək.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Konfransın ölkəmizdə keçirilməsi barədə ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli Sərəncamına əsasən işçi qrupu yaradılıb və konfransın Tədbirlər Planı təsdiq edilib.

Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə "Bulvar Otel"in Konfrans Mərkəzində keçiriləcək Beynəlxalq Konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı dünyada mövcud olan müasir mübarizə üsullarından ölkə mütəxəssislərinin bəhrələnməsinə şərait yaradacaq.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi"nə hədəflənmiş Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaqdır.

Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan Beynəlxalq Konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib. Beynəlxalq Konfrans birinci dəfə 1983-cü ildə Panamada keçirilib.

Qeyd edək ki, narkotiklərlə mübarizə üzrə Beynəlxalq Konfrans hərəsində 3 dəfə olmaqla Braziliya, Argentina, Meksika və Dominikanda, hərəsində 2 dəfə olmaqla Panama, Çili, ABŞ, Kolumbiya, Boliviya və Peruda, hərəsində 1 dəfə olmaqla Qvatemala, Ekvador, Baham adaları, Kosta Rika, Kanada, İspaniya, Türkiyə, İndoneziya, Rusiya, İtaliya və Niderlandda keçirilib.

Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılacaq, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar veriləcək.

# Rusiya nümayəndə heyəti "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirib







Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərliyi ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakıdakı 5 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, qonaqlara "ASAN xidmət" mərkəzlərinin yaradılması, bu mərkəzlərin məqsədləri, onların fəaliyyət istiqamətləri və orada göstərilən xidmət növləri barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, "ASAN xidmət" yaradılandan sonra şəffaflığın artırılması və müasir innovasiyaların tətbiq edilməsi məqsədilə səmərəli dövlət idarəçiliyinin təmin olunmasında ciddi uğurlar qazanılıb.

Vurğulanıb ki, Azərbaycanın brend məhsulu olan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin əsas məqsədi dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən hüquqi xidmətləri asanlaşdırmaq, korrupsiya hallarını aradan qaldırmaq, müasir texnologiyaları tətbiq etmək, dövlət qulluqçuları ilə vətəndaşlar arasında münasibətlərdə yeni təfəkkür tərzini formalaşdırmaqdır.

"ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakət, məsuliyyət, etik davranış qaydalarına riayət olunmasına nəzarətin və maksimum rahatlığın təmin edilməsidir. Burada vətəndaşların elektron xidmətlərin bütün növlərindən istifadə edə bilmələri üçün hər cür şərait yaradılıb. "ASAN xidmət"lərdə vətəndaşlara müasir texnologiyalardan və innovasiyalardan istifadə edilməklə xidmətlər göstərilir. Burada xidmət göstərilməsini gözləyən vətəndaşların vaxtını səmərəli keçirmələri üçün yardımçı funksional xidmətlər nəzərdə tutulub.

Valentina Matviyenko mərkəzdə tətbiq edilən innovativ avadanlıqla da tanış olub.

Vurğulanıb ki, "ASAN xidmət" 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Mükafatına layiq görülüb.

Rusiya nümayəndə heyəti "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirib.

# Azərbaycan və Çin üçün dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsi fundamental əhəmiyyət kəsb edir







Azərbaycan və Çin üçün dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi fundamental əhəmiyyət kəsb edir.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin nazir müavini statusunda olan xarici əlaqələr şöbəsinin müdir müavini Quo Yecou, Çin xarici işlər nazirinin müavini Can Hanhuy, Çin Xalq Xarici Əlaqələr İnstitutunun vitse-prezidenti Lian Ciençüən ilə görüşlərində səslənib.

Görüşlərdə iki ölkə arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Hikmət Hacıyev səfərin nəticələri barədə AZƏRTAC-ın xüsusi müxbirinə məxsusi müsahibəsində deyib:



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpin başda olmaqla ölkə rəsmiləri ilə apardığı müzakirələr iki ölkə arasında əlaqələrin inkişafı və keyfiyyətcə yeni mərhələyə daxil olmasında mühüm rol oynayıb. Həmin səfər çərçivəsində dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə, həmçinin "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan "İpək yolu iqtisadi" kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Bütün bunlar Azərbaycan-Çin əlaqələrinin bütün sahələrdə inkişafına şərait yaradıb.

Hazırkı səfər çərçivəsində iki ölkə arasındakı yüksək səviyyəli siyasi dialoqun ruhuna uyğun olaraq Çindən olan tərəf müqabillərimiz ilə keçirdiyimiz görüşlərdə münasibətlərimizin siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişafı barədə geniş fikir mübadiləsi apardıq. İki ölkənin yaxın dostluq və tərəfdaşlıq münasibətləri var. Prezident İlham Əliyev Azərbaycanın Çin ilə əlaqələrin bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət verir.

Azərbaycan Çinin dövlət başçısının müəllifi olduğu "Bir kəmər, bir yol" layihəsini yaxından dəstəkləyir. Düşünürük ki, bu layihə çərçivəsində də əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanlar var. Bu çərçivədə nəqliyyat-tranzit sahəsində əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Region ölkələri ilə əlaqələndirilmiş böyük nəqliyyat infrastrukturuna malik olan Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması və inkişafı prosesində yaxından iştirak edir. Çin tərəfi Bakı-Tbilisi-Qars dəmir yolu da daxil olmaqla bu dəhlizlərdən istifadə edərək bazarlara yeni çıxışın əldə edilməsində maraqlıdır.

Azərbaycan və Çin arasında xarici siyasət məsələlərində ortaq fikirlər və baxışlar var. Hər iki ölkə beynəlxalq münasibətlərdə BMT Nizamnaməsinin, beynəlxalq hüququn norma və prinsiplərinin hakim kəsilməsinin tərəfdarıdır. Hər iki ölkə üçün dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi fundamental əhəmiyyət kəsb edir. Azərbaycan "Vahid Çin" siyasətini qəti şəkildə dəstəkləyir. Çinli həmkarlarımız görüşlərdə bir daha vurğuladılar ki, Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplərə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həllinə tərəfdardır. Bu məsələ iki ölkənin dövlət başçısının 2015-ci ildə qəbul etdikləri Birgə Bəyannamədə də öz təsbitini tapıb.

# YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib




Dünən Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlının, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyevin, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlunun, Səbail rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalovun, YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyevanın, partiyanın və rayon təşkilatının gənclər birliklərinin üzvlərinin iştirak etdiyi konfransı giriş sözü ilə millət vəkili, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev açaraq ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışıb.







Natiq bildirib ki, Azərbaycanda dövlət gənclər siyasətinin təşəkkülü və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərə həmişə böyük qayğı göstərib, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirib. Bunun sayəsində hazırda gənclər dövlət orqanlarında, parlamentdə, iri biznes və maliyyə qurumlarında, bələdiyyələrdə geniş təmsil olunur, ölkəmiz üçün taleyüklü məsələlərin həllində fəal rol oynayır, təhsil, mədəniyyət, idman və digər sahələrdə parlaq nailiyyətləri ilə Azərbaycanı dünyada uğurla təbliğ edirlər.

Diqqətə çatdırılıb ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti bir çox ölkələr üçün nümunədir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür, əhəmiyyətli nəticələr əldə olunur. Sevindirici haldır ki, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən gənclər arasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri, o cümlədən YAP Səbail rayon təşkilatının gənc üzvləri də ilk sıralardadırlar.

Azərbaycanda həyata keçirilən uğurlu dövlət gənclər siyasətindən bəhs edən videoçarxın nümayişindən sonra YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri Rəşad Fərəcov IV konfransdan ötən müddət ərzində görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib.

YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, Birliyin ofisinin əlaqələndiricisi Elmar Məmmədov və "Qərbi Kaspi" Universitetinin tələbəsi Fuad Heydərli hesabat məruzəsi ətrafında çıxış edərək, görülmüş işləri qənaətbəxş qiymətləndiriblər.

Konfransda çıxış edən YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı YAP Səbail rayon təşkilatı Gənclər Birliyinə uğurlar arzulayıb. Mübariz Qurbanlı bildirib ki, YAP bu gün nəinki Azərbaycanın, eləcə də Cənubi Qafqaz regionunun ən böyük siyasi təşkilatıdır. Bu isə özlüyündə həmin böyük qüvvənin gənclər qurumu olaraq YAP Gənclər Birliyinin, o cümlədən YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin üzvlərinin üzərinə əlavə məsuliyyət qoyur. Çünki Azərbaycanın hədəfləri böyükdür və həmin hədəflərə çatmaq naminə gənclərimiz bütün imkanlarını səfərbər etməlidirlər: **"Partiyamızın sıralarında yüksək intellektli gənclər birləşiblər ki, onlar üzərlərinə düşən vəzifələri yerinə yetirməyə qadirdirlər. Az öncə biz burada tarixi bir videofilm izlədik. Bir anlıq keçmişə ekskursiya etmiş olduq. Orada gördüyünüz kimi, Ulu Öndər Öz kabinetində gənclərlə görüş keçirmişdi. Hər bir gənc üçün örnək ola biləcək tövsiyələrini vermişdi. Həmin gənclər sırasında yer alanlar bu gün cəmiyyətdə artıq yer tutmuş və Azərbaycanın nümunəvi vətəndaşlarıdırlar. Onlar bu gün Milli Məclisdə, dövlət orqanlarında, icra strukturlarında çalışırlar".**

YAP İcra katibinin müavini deyib ki, partiyamız davamlı şəkildə böyük uğurlara imza atmaqla cəmiyyətdə nüfuzunu, siyasi çəkisini daha da artırıb: **"YAP yarandığı gündən siyasi mübarizələrlə zəngin yol keçib. Artıq bu gün partiyamız növbəti zəfərlərə doğru inamla irəliləyir. Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvədir".**

YAP İcra katibinin müavini bildirib ki, gələcəyin sahibləri olan gənclərimiz üçün dövlətimiz bütün imkanları yaradıb: **"Ona görə də gənclərimiz yüksək biliklərə yiyələnib Azərbaycanın daha da inkişafı üçün səylər göstərməli, ölkəmizin beynəlxalq miqyasda nüfuzunun daha da artmasına töhfələr verməlidirlər. Sevindirici haldır ki, ölkə gəncliyi birmənalı olaraq Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir".**

Çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində gənclərimizin qazandıqları nailiyyətlərdən danışıb.

Millət vəkili qeyd edib ki, ölkəmizdə gənclərə göstərilən hərtərəfli qayğı onların siyasi mövqelərinin düzgün formalaşmasında mühüm rol oynayır: **"Yeni Azərbaycan Partiyası hər bir gəncin ictimai-siyasi fəaliyyəti üçün çox böyük motivasiyadır".**

Partiyamızın gənclərə öz potensiallarını nümayiş etdirmək üçün hər cür şərait yaratdığını vurğulayan millət vəkili **"İnanıram ki, gələcəyin nazirləri də, millət vəkilləri də, icra başçıları da siz olacaqsınız. Əminəm ki, gənclərimiz bu sözləri mayak tutaraq daim irəliyə doğru gedəcəklər",** - deyə əlavə edib.

Konfransda çıxış edən Səbail rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov rayon gənclərinin bütün təşəbbüslərinin daim dəstəkləndiyini diqqətə çatdırıb. İcra Hakimiyyətinin başçısı digər gənclər kimi, YAP Səbail rayon təşkilatının Gənclər Birliyinin üzvlərinin də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmələrindən məmnunluğunu bildirib, birliyin fəaliyyətini yüksək qiymətləndirib.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev də tədbirdə çıxış edərək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Hazırda dünyada mürəkkəb proseslərin baş verdiyini deyən Ülvi Quliyev gənclərə təşəbbüskar olmağı tövsiyə edib. O, Prezident İlham Əliyevin ölkə gəncliyinin inkişafını daim diqqət mərkəzində saxladığını bildirib.

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Səbail rayon təşkilatı Gənclər Birliyi Şurasının, İdarə Heyətinin tərkibi müəyyənləşib. Belə ki, Şuraya 43, İdarə Heyətinə isə 25 nəfər seçilib. Səsvermə nəticəsində Ayxan Həsənov YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib.

**Müşfiqə BAYRAMLI**

# ADNSU-da YAP ilk təşkilatının hesabat-seçki yığıncağı keçirilib






Aprelin 12-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı ADNSU üzrə ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib.

Universitetdən AZƏRTAC-a bildirilib ki, hesabat-seçki yığıncağı Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi və Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

ADNSU-nun YAP ilk təşkilatının sədri, dosent Tamilla Naibova tədbir iştirakçılarını iclasın gündəliyi ilə tanış edib.

Universitet gənclərinin YAP təşkilatının nümayəndəsi Ülvi Rəcəbli son 3 ildə ADNSU-nun YAP ilk təşkilatının gördüyü işlər və fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış edib.

Rektor Mustafa Babanlı Yeni Azərbaycan Partiyasına üzv olmağın məsuliyyətindən danışıb və ADNSU-da YAP üzvü olan gənclərin fəaliyyətini yüksək qiymətləndirib. O, gənclərin bundan sonra da fəaliyyət dairələrini genişləndirəcəklərinə ümidvar olduğunu bildirib.

YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında ADNSU gənclərinin aktiv fəaliyyətindən danışıb və YAP-ın yeni üzvlərini daha fəal olmağa çağırıb.

Tədbirdə YAP Gənclər Birliyinin üzvü Salman Salmanov YAP-da gənclərlə əlaqədar görülən işlərdən söz açıb və yeni üzvlərə tövsiyələrini verib.

Daha sonra hesabat seçki yığıncağının qərar layihəsi oxunub. Həmçinin YAP Gənclər Birliyinin idarə heyəti üzvlərinin adları açıqlanıb.

Sonda ADNSU-nun Yeni Azərbaycan Partiyasına üzv olan 30 nəfərə partiya biletləri təqdim edilib. Daha 15 nəfərin müraciəti isə qəbul olunub.

# Azərbaycanın sosial-iqtisadi inkişafı dinamik xarakter daşıyır



***<u>Milli Məclisin deputatı Sevinc Hüseynova www.yap.org.az saytına müsahibə verib</u>:***

**- Sevinc xanım, məlum olduğu kimi, bu günlərdə Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verilib. Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət qayğısı haqqında fikirlərinizi bilmək istərdik...**

- Qaçqın və məcburi köçkünlərə qayğı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Aprelin 5-də Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilməsi də bu qayğının ifadəsidir. Qeyd edim ki, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji kursa uyğun olaraq respublikamızda qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Bunlar arasında da qaçqın və məcburi köçkünlər, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələri ön sırada dayanırlar. Çünki qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli daim dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Ötən illər ərzində ölkəmizdə qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb.

Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir.

Bilirsiniz ki, bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Bu faktlar bir daha dövlətimizin bu məsələlərə xüsusi diqqətini göstərir. Xatırladım ki, ötən il dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün, dekabrın 27-də isə Sumqayıt şəhərində 1005 qaçqın və məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin uğurlu davamıdır. Bütün bunlarla yanaşı, Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı Sərəncamına əsasən məcburi köçkünlərə ödənilən vəsaitin həcmi 50 faiz artırılıb.

Qaçqın və məcburi köçkünlər inanırlar ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq və bu tipli quruculuq işləri həmin torpaqlarda aparılacaq.

**- Son vaxtlar ölkəmizdə sosial sahədə çox mühüm addımlar atılmaqdadır. Bu fakt Azərbaycanı sosial dövlət kimi necə səciyyələndirir?**

- Bilirsiniz ki, Azərbaycan ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanıb. Ölkəmizin maliyyə imkanlarının güclənməsi istər regionların sosial-iqtisadi inkişafı, istərsə də insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində layihələrin reallaşdırılmasına da imkan verib. Cənab Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır.

Ümumiyyətlə, Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişafı dinamik xarakter daşıyır. Davamlı olaraq islahatların həyata keçirilməsi inkişaf proseslərini daha da gücləndirir. Fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə də qeyd olunduğu kimi, artıq ölkəmizdə 2017-ci ildə iqtisadi sabitliyin təmin olunması ilə bağlı atılan önəmli addımlar, həmçinin 2018-ci ildə ardıcıl şəkildə həyata keçirilən ciddi islahatlar öz müsbət nəticələrini verir.

Vətəndaşların rifahının daha da yüksəldilməsi, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Ölkə Prezidenti İlham Əliyevin verdiyi qərarlar vətəndaşların maraqlarına xidmət edir. Respublikamızda inklüzivliyin təmin olunması, əhaliyə göstərilən xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılması və beləliklə də, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, sosial infrastruktur quruculuğuna getdikcə daha böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir. Ölkəmizdə 2019-cu ilin əvvəlindən sosial sahədə bilavasitə insanların rifah halının yaxşılaşmasına hədəflənən tədbirlərin reallaşdırılması daha da intensivləşib. Bu sahədə atılacaq addımlar cənab Prezident tərəfindən hələ ötən il müxtəlif tədbirlərdə anons edilib və hazırda vaxtilə verilən vədlərin uğurla reallaşdırılması prosesi gedir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq. Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır. Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, problemli kreditlərin həll olunması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür. Bütövlükdə, 3 milyona yaxın insan dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq. Azərbaycan dövlətinin yürütdüyü dərinməzmunlu sosial siyasət, həqiqətən də, inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının əyani nümunəsidir.

**- Sevinc xanım, siz parlamentin Gənclər və idman komitəsinin üzvüsünüz. Bu yaxınlarda "Gənclər siyasəti haqqında" qanuna edilən dəyişikliklərin əhəmiyyəti nədən ibarətdir?**

- Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan gəncliyi cəmiyyətin aparıcı qüvvəsidir. Ölkəmizdə gəncliyin inkişafı üçün sistemli olaraq tədbirlər görülür, o cümlədən qanunvericilik aktları təkmilləşdirilir.

Bilirsiniz ki, bu yaxınlarda Milli Məclisdə "Gənclər siyasəti haqqında" qanuna önəmli dəyişikliklər edilib. Qəbul olunmuş yeni sənəddə mühüm məsələlər əksini tapır. Sənəddə gənclər siyasətinin məqsəd və prinsipləri, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, onların sağlamlığının qorunması və fiziki inkişafı, məşğulluğunun təmin edilməsi, gənc ailələrə, gənclər təşkilatlarına dövlət yardımı, gənclər siyasətinin həyata keçirilməsinin maddi və maliyyə təminatı ilə bağlı maddələrə bir sıra vacib əlavələr edilib. Eyni zamanda, aztəminatlı gənc ailələrin sosial müdafiəsi, onların mənzil təminatının yaxşılaşdırılması və bu məqsədlə güzəştlərin tətbiq olunması, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsi, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin təhsil problemlərinin həlli və asudə vaxtlarının səmərəli keçirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi məsələləri qanunda əks olunub. Digər vacib bir məqam isə gənc ailələrin mənzil təminatı ilə bağlı müddəadır.

Gənclərimiz bu gün milli mənəvi dəyərlərimizin qorunması və təbliğində vacib rol oynayırlar. Bu məsələ də sənəddə əks olunub. Belə ki, 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsinin təmin edilməsi və sağlam gəncliyin formalaşdırılması məqsədilə onlara tütün məmulatlarının, spirtli və energetik içkilərin satışına yol verilməyəcək.

Bütün bunlarla yanaşı, qanunda edilən mühüm yeniliklərdən biri risk qrupunda olan gənclərin sosial adaptasiyası üçün tədbirlərin həyata keçirilməsi, risk qrupunda olan gənclərlə könüllülər arasında qarşılıqlı yardım qruplarının təşkil edilməsidir. Eləcə də sahibkar gənclərə də dövlət dəstəyinin gücləndirilməsi sənəddə öz əksini tapır. Bütövlükdə yeni qəbul olunmuş sənəd dövlət gənclər siyasətinin hüquqi bazasını daha da təkmilləşdirir. "Gənclər siyasəti haqqında" qanuna edilən dəyişikliklər Azərbaycan gəncliyinin hərtərəfli inkişafına yeni töhfələr verəcək.

# YAP Tovuz rayon təşkilatı Gənclər Birliyinin konfransı keçirilib





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Tovuz rayon təşkilatının Gənclər Birliyinin hesabat-seçki konfransı keçirilib. Konfransdan əvvəl tədbir iştirakçıları Ümummilli Liderimiz Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət ediblər.

Sonra Gənclər Birliyinin konfranslararası dövrdəki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Konfransı YAP Tovuz rayon təşkilatı Gənclər Birliyinin sədri Nihad Pənahov açaraq hesabat məruzəsi ilə çıxış edib. Məruzəçi əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirərək ölkədə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin formalaşdığını qeyd edib. Sonra o, YAP Tovuz rayon təşkilatı Gənclər Birliyinin hesabat dövründə gördüyü işlər, qazandığı uğurlar barədə məlumat verib.

Daha sonra Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP rayon təşkilatının sədri Məzahir Bayramov, Milli Məclisin deputatı Naqif Həmzəyev, fəal gənclər Yaqub Qasımov, Nigar Ağasəli, Ayşən Əliyeva və digərləri çıxış edərək ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni həyatında gənclərin uğurlarından danışıb, rayon təşkilatı Gənclər Birliyinin fəaliyyətini təqdir etməklə yanaşı, qarşıda duran aktual məsələləri diqqətə çatdırıblar.

Daha sonra təşkilati məsələlərə baxılıb. Nihad Məmmədtağı oğlu Pənahov YAP Tovuz rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Həmçinin rayon təşkilatı Gənclər Birliyinin Şurasının 31 nəfərdən ibarət tərkibi, 9 nəfərdən ibarət İdarə Heyəti, sədr müavinləri və YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr seçilib.

# Elmira Axundovanın yeni kitablarının təqdimatı olub



Beynəlxalq Mətbuat Mərkəzində tanınmış yazıçı-publisist, Milli Məclisin deputatı, Xalq yazıçısı, Əməkdar jurnalist Elmira Axundovanın "Həmkarlarımla üz-üzə" və "Bizim tanıdığımız Elmira..." kitablarının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, "Bizim tanıdığımız Elmira..." kitabında Elmira Axundovanın yaradıcılığına həsr olunmuş məqalə və esselər toplanıb. Burada son 15 ildə mətbuatda onun haqqında çıxan ən maraqlı və əhəmiyyətli yazılar yerləşdirilib. İkinci kitab - "Həmkarlarımla üz-üzə" isə Elmira Axundovanın müxtəlif yazılı və elektron KİV-də öz jurnalist həmkarları ilə açıq və səmimi söhbətləri - uşaqlıq illəri, valideynləri, ilk məhəbbəti, özünün maraqlı, gözlənilməz hadisələrlə dolu və sərt dönüşləri olan həyatı barədə müsahibələrindən ibarətdir.

Tədbirdə çıxış edən kitabların müəllifi Elmira Axundova onun yaradıcılığını izləyənlərə, ədəbi və ictimai fəaliyyətinə maraq göstərənlərə təşəkkürünü bildirib. O deyib: **"Bu gün kitablarımın təqdimatında mən məhz jurnalist həmkarlarımı, xüsusən mənim son 15 ildə - bədii yaradıcılıqla fəal şəkildə məşğul olduğum müddətdə hər zaman mənim layihələrimi və təşəbbüslərimi dəstəkləyənləri, xaricdə keçirdiyim bütün təqdimatları, yeni çıxan kitablarımı işıqlandıranları bir yerə toplamaq istəyirdim. Bütün bunlara görə onlara çox minnətdaram. Yazıçılıq sənətinin Anar, Vaqif Səmədoğlu, Natiq Rəsulzadə kimi ustadlarının, akademik İsa Həbibbəylinin, jurnalistikanın korifeyləri Elmira Əliyeva və Qalina Mikeladzenin və bir çox başqalarının mənim haqqımda əhatəli, dərin və çox səmimi məqalələr yazdıqlarını dərk etmək mənim üçün çox xoşdur. Deməli, publisistika sahəsində mənim əməyim, kitablarım, səylərim onlarda öz güclərini və vaxtlarını sərf edərək bu cür məqalə və oçerklər yazmaq marağı oyadıb. Mən də mətbuatda haqqımda çıxan ən əhəmiyyətli və əlamətdar yazıları nəşr etməyə qərar verdim. Nəhayətində, bu, digər yazıçılar və publisistlər üçün, eləcə də çoxsaylı dostlarım və həmkarlarım üçün ədəbiyyatı tədqiq etmək sahəsində nümunə ola bilər".**




Azərbaycanın Xalq yazıçısı qeyd edib ki, jurnalistə müsahibə bir tərəfdən, informasiyaya malik olan insanla ünsiyyət zamanı ondan həmin informasiyanı əldə etmək metodudur, digər tərəfdən, publisistika janrı jurnalistin söhbət və suallar verməsi vasitəsilə həmsöhbətinin informasiyanı tam şəkildə açmasına kömək etməsidir. Ona görə də konkret müsahibə üçün lazımi yanaşmanın seçilməsi çox mühümdür. **"Məndən tez-tez soruşurlar: "Bizdə müasir jurnalistikanın səviyyəsi necədir?" Mən həmişə cavab verirəm ki, Azərbaycan jurnalistikası da böyük media məkanının bir hissəsi kimi yerində saymır, irəliyə doğru addımlayır, olar bilər ki, o, regionda ən güclüsüdür. Düzünü desək, hesab edirəm ki, mən jurnalist həmkarlarım qarşısında öz borcumu hələ tam şəkildə yerinə yetirməmişəm. Elə bu səbəbdən, sizləri də həmmüəllifi hesab etdiyim "Həmkarlarımla üz-üzə" və "Bizim tanıdığımız Elmira..." kitablarını yazmaq ideyası yarandı. Bundan başqa, mənim "Dostlarımın gözəl cəhətləri..." adlı digər kitabımda tanınmış siyasi xadimlərlə yanaşı, Elmira Əmrah qızı, Nəsir İmanquliyev, Aslan Aslanov və digər adlı-sanlı jurnalistlərin bədii portretləri təqdim olunub",** - deyə müəllif qeyd edib.

Tədbirdə çıxış edən Xalq yazıçısı Natiq Rəsulzadə, Milli Məclisin deputatı Sahib Alıyev, "Kaspiy" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İlqar Hüseynov, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "Kaspi" qəzetinin müxbiri Afət İslam və digərləri qeyd ediblər ki, Elmira Axundova öz kitablarında özünəməxsus düzgünlüklə, eyni zamanda, səmimi və birmənalı şəkildə bu gün cəmiyyətimizi narahat edən bir çox problemlər haqqında kəskin, bəzən isə gözlənilməz suallara cavab verir. Oxucular son otuz ildə ölkəmizin ictimai-siyasi həyatının tarixində baş verən hadisələrə tanınmış yazıçının prizmasından baxmaq imkanı əldə edirlər. Bununla yanaşı, Elmira Axundova özünün jurnalist həmkarlarını da yaddan çıxarmayıb və kitablarında onun yaradıcılığından bəhs edən kiçik yazılardan tutmuş, geniş və dərin analitik məqalələrədək bütün materialları yerləşdirib.

Elmira Axundova yüksək peşəkarlıq, insanlara və hadisələrə xeyirxah və obyektiv münasibət məktəbidir. Bu, gənc jurnalistlər nəslinə bir çox mətləbləri öyrətməyə qadir olan, onları öz fikirlərini savadlı şəkildə ifadə etməyi, peşəkarlığı, öz sözlərinə görə məsuliyyət daşımağı, Vətənini və xalqını sevməyi və onlara xidmət etməyi, prinsipial olmağı, bütün qəlbi ilə həyatını həsr etdiyi peşəsinə bağlanmağı təlqin edən məktəbdir.

Qeyd olunub ki, Elmira Axundova "Naşirin qətli", "Şüşə saray", "Fərmanla əfv edilib", "Bu bizik", "Dostlarımın gözəl cəhətləri", "Yaşamaq dövrü", "Elçinin fövqəlvəzifəsi", "Həqiqət anları", "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda", "Anar Məmmədxanov. Kapitanın taleyi" və başqa kitabların müəllifidir. "Heydər Əliyev. Şəxsiyyət və zaman" yeddicildlik roman-tədqiqatında isə yazıçı Ümummilli Lider Heydər Əliyevin sözün əsl mənasında möhtəşəm, əbədiyaşar abidəsini yaradıb və bu abidə əsrlər boyu var olacaq.

Xüsusilə vurğulanıb ki, Elmira Axundova ədəbi yaradıcılıqla yanaşı, həm də Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edir, cəmiyyətdə olan problemlərə biganə qalmır.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# ADU-da "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda elmi konfrans keçirilib




Aprelin 12-də Azərbaycan Dillər Universitetində (ADU) "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda respublika elmi konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda açılış nitqi ilə çıxış edən rektor, akademik Kamal Abdulla Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin zəngin yaradıcılığından danışıb, onun ədəbiyyata əvəzsiz töhfələr verdiyini diqqətə çatdırıb. Bildirib ki, klassik ədəbiyyatın ən yaxşı ənənələrini inkişaf etdirən H.Cavid, həm də XX əsr Azərbaycan romantizminin banilərindən biri kimi tanınır. Sevgi, məhəbbət, gözəllik şairi olan Cavid lirik, lirik-epik əsərlərin, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir.

Kamal Abdulla deyib: **"Hüseyn Cavid ədəbiyyatda böyük Azərbaycan şairi Məhəmməd Füzuli ənənələrinin, xəttinin davamçısıdır. Çoxcəhətli və zəngin yaradıcılığa malik Cavidin əsərlərini bu gün də Azərbaycan gəncliyi sevə-sevə oxuyur".**

Diqqətə çatdırılıb ki, xalqımız tərəfindən böyük ədibin xatirəsi hər zaman əziz tutulub, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Hüseyn Cavidin 130 və 135 illik yubileyləri dövlət səviyyəsində qeyd edilib. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet dövründə Cavidin nəşi uzaq Sibirdən Naxçıvana gətirilərək doğma torpaqda dəfn edilib. Bu, Ulu Öndərin Hüseyn Cavidə, Azərbaycan ədəbiyyatına misilsiz xidməti idi.

Tədbirdə çıxış edən İndoneziyanın Azərbaycandakı səfiri Hüsnan bəy Fənani konfransın mövzusunun həm təmsil etdiyi ölkə, həm də qlobal mühitlə tarix, ədəbiyyat, mədəniyyət, siyasət və mənəvi dəyərlər baxımından yaxın olduğunu deyib. O, Hüseyn Cavid irsinin indiki və gələcək nəslə böyük təsir edəcəyinə əminliyini bildirib.



Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanov "Cavid sənətində bəşəri genişlik" mövzusunda çıxış edib. O, azərbaycançılıq məfkurəsinin, türk idealının, islami dəyərlər məsələsinin Cavid yaradıcılığında bəşəri mahiyyət daşıdığını bildirib. Qeyd edib ki, Cavidin mövzularının haradan qaynaqlanmasından asılı olmayaraq, əsas məsələ onun bəşəri ideyalara sadiq qalması və ən sərt həqiqətləri əks etdirməkdən çəkinməməsidir.

Konfransda "Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyevanın "Hüseyn Cavid Şərqin böyük mütəfəkkir şairidir" mövzusunda məruzəsi dinlənilib. Məruzədə Hüseyn Cavidin fitri istedadı, dünya ədəbiyyatını və fəlsəfəni dərindən bilməsi, zəngin dünyagörüşü, tarixi köklərə, klassik ənənələrə bağlılığı vurğulanıb. **"Cavid nə qədər bəşəridirsə, bir o qədər millidir, Cavid nə qədər tarixidirsə, bir o qədər də müasirdir",** - deyə Sona Vəliyeva qeyd edib.

Fransanın Nim Universitetinin professoru Silvi Joseğam "Ədəbiyyat siyasi təhdiddirmi?", Bakı Yunus Əmrə İnstitutunun müdiri Cihan Özdemir "Hüseyn Cavidin dram yaradıcılığında Əbdülhəq Hamidin təsiri", Bakı Dövlət Universitetinin dünya ədəbiyyatı kafedrasının müdiri, professor Cəlil Nağıyev "Hüseyn Cavid modernizmi və dünya ədəbiyyatı (Cavid dramaturgiyasından bir fraqment)", Belqrad Universitetinin dosenti Branko Vraneş "Dünya ədəbiyyatının Şərqi: Azərbaycandan Serbiyaya" mövzularında məruzə ilə çıxış ediblər.

Venesuela Bolivar Respublikasının Azərbaycandakı səfiri Kristofer Alberto Martinez Berroteran Hüseyn Cavidin tarixdə ədəbi ənənələri inkişaf etdirən azərbaycanlı kimi iz qoyduğunu söyləyib. O, H.Cavid yaradıcılığını tanıyan və onun əsərlərindən ilham alan sənətkarların incəsənət və ədəbiyyat tarixinin bir hissəsini təşkil etdiyini diqqətə çatdırıb.

Norveçdən skandinaviyaşünas müəllim Raqnil Tori konfransın Azərbaycanın görkəmli şəxsiyyətinə həsr olunmasını təqdirəlayiq hal kimi dəyərləndirib.

ADU-nun elmi işlər üzrə prorektoru, filologiya üzrə elmlər doktoru Sevinc Zeynalova konfransın ünvanına daxil olan təbrik məktublarını diqqətə çatdırıb.

Konfransda, həmçinin Kubanın Azərbaycandakı səfiri Alfredo Fidel Nieves Portoundo və digər xarici və yerli qonaqlar iştirak ediblər.

Azərbaycan, türk, ingilis və rus dillərində keçirilən konfransın işi "Hüseyn Cavid və türk dünyası", "Hüseyn Cavid və Şərq ədəbiyyatı", "Hüseyn Cavid və Qərb romantizmi" bölmələri üzrə aparılıb. Konfrans öz işini uğurla başa çatdırıb.

# Vüqar Rəhimzadə: "Opinion Way"-in sorğusu Prezident İlham Əliyevin həyata keçirdiyi təkmil islahatların təqdimatıdır

İnkişaf modeli beynəlxalq səviyyədə təqdir olunan və öyrənilməsinin vacibliyi qeyd edilən Azərbaycanın davamlı inkişafı düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Prezident kimi fəaliyyətə başladığı ilk gündən Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiqliyini atdığı hər addımında təsdiqləyən Prezident İlham Əliyev ölkəmizin ən yüksək zirvələri fəth etməsini şərtləndirən təkmil islahatlar həyata keçirir, inkişaf etmiş ölkələr sırasında yer almaq istəyini ortaya qoyaraq, bu istiqamətdə mühüm addımlar atır. 2018-ci il 11 aprel prezident seçkilərindən ötən bir ildə Azərbaycanın qazandığı uğurlar müstəqillik tariximizə yeni-yeni uğurlu səhifələr yazdı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Fransanın "Opinion Way" şirkətinin bu ilin martında Azərbaycanda keçirdiyi rəy sorğusuna münasibət bildirərkən deyib.

V.Rəhimzadə qeyd edib ki, sorğunun nəticələri dövlətimizin başçısı İlham Əliyevin yenə də Öz seçicilərinin yüksək etimadına malik olduğunu təsdiq etdi. Azərbaycanda mövcud sabitlik, xalq-iqtidar birliyi beynəlxalq səviyyədə təqdir olunan mühüm məqamlardandır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, hər bir seçkinin nəticələri ölkədə mövcud ab-havanı göstərir. Ötən ilin prezident seçkiləri bunu bir daha təsdiqlədi. 2003-cü ildən başlanan böyük yolun davamı Azərbaycanın bugünkü reallıqlarında öz əksini tapır. Beynəlxalq aləmdə sabitləşdirici faktor kimi tanınan Azərbaycanda xalq-iqtidar birliyinin sarsılmazlığı beynəlxalq qurumların hesabatlarında, sorğu mərkəzlərinin keçirdikləri sorğuların nəticələrində də əksini tapır. Bu məqamı da xüsusi qeyd etməliyik ki, ABŞ-ın nüfuzlu "Gellap İnternasional" təşkilatı daim seçkilərdən öncə Azərbaycan əhalisi arasında sorğu keçirir.



Dövlətimizin başçısı İlham Əliyevə xalqın dəstəyi, həyata keçirilən siyasətin yüksək qiymətləndirilməsi bu sorğunun nəticələrində də daim öz əksini tapıb.

"İki sahil" qəzetinin baş redaktoru bildirib ki, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin ümumi daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə "Opinion Way" şirkəti tərəfindən Azərbaycanın bölgələrində keçirilən rəy sorğusunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. **"Sabitliyin, normal biznes mühitinin yaradıldığı ölkəmizdə iqtisadi tərəqqi qaçılmazdır. Azərbaycanın iqtisadi inkişafı beynəlxalq səviyyədə möcüzə kimi dəyərləndirilir. Nəzərə alsaq ki, dünya 2008-ci ildən iqtisadi və maliyyə böhranının ağır nəticələrini yaşamaqdadır, Azərbaycanın daim iqtisadi artımı ilə diqqət mərkəzində olması qürurverici hadisədir. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması bu uğurlarımıza yol açan əsas amillərdəndir. Dövlətimizin başçısı İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycanda güclü sahibkarlar sinfi yaranıb, ən əsası nəinki neft-qaz sektorunda, eyni zamanda, qeyri-neft sektoru sahəsində mövcud durum xarici iş adamlarının diqqətindədir və bu sahəyə invevtisiya qoyuluşu artmaqdadır. Son 15 ildə ölkə iqtisadiyyatına 250 milyard dollara yaxın investisiyanın qoyulması ölkəmizdə sabitliyin, mövcud iqtisadi durumun, ən əsası Azərbaycanın bu gününə və gələcəyinə inamın göstəricisidir",** - deyə "İki sahil" qəzetinin baş redaktoru vurğulayıb.

V.Rəhimzadə qeyd edib ki, sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualını respondentlərin 85,1 faizi bütövlükdə "müsbət" cavablandırıb. Dövlətimizin başçısının seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair "Opinion Way"in sualına respondentlərin bütövlükdə 75,6 faizi müsbət cavab verib. Təkcə bir ilin uğurlarına söykənərək, Prezident İlham Əliyevin kadr islahatları ilə bağlı sualları cavablandıran respondentlərin 78,8 faizi həyata keçirilən kadr siyasətinə öz müsbət rəyini ifadə edib. Prezident İlham Əliyev daim çıxışlarında davamlı inkişafı şərtləndirən amillərdən bəhs edərək, idarəetmə sistemində təkmilləşməni vacib amil kimi önə çəkib. Təkcə cari ilin arxada qalan 3 ayında bu istiqamətdə atılan addımlara diqqət yetirsək, təkmilləşmənin, yeniləşmənin hansı uğurlara yol açdığını görərik.

Ümumilikdə sorğunun nəticələrini Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi təkmil islahatların təqdimatı kimi dəyərləndirən V.Rəhimzadə bu fikri böyük əminliklə ifadə edib ki, qarşıdakı illərdə Azərbaycanı daha möhtəşəm uğurlar gözləyir, ən əsası inkişaf etmiş ölkələr sırasında addımlamaq hədəfimiz artıq reallıqdır.

# Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyində Dünya Aviasiya və Kosmonavtika Günü qeyd olunub

*Azərbaycanda kosmik sənayenin inkişafında mühüm xidmətləri olan akademik Tofiq İsmayılovun xatirəsi yad edilib*



Aprelin 12-də Müdafiə Sənayesi Nazirliyinin (MSN) Milli Aerokosmik Agentliyində (MAKA) Dünya Aviasiya və Kosmonavtika Günü ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Müdafiə Sənayesi Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları əvvəlcə agentliyin binasında Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyaraq, Ümummilli Liderin xatirəsinə ehtiramlarını bildiriblər.

Tədbiri açan Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov vurğulayıb ki, aprelin 12-si bütün dünyada, eləcə də Azərbaycanda Aviasiya və Kosmonavtika Günü kimi qeyd edilir. Ölkəmizdə də kosmik sahə ilə əlaqədar önəmli işlər görülür. Azərbaycanda kosmik sahənin inkişafında akademik Tofiq İsmayılovun mühüm xidmətləri var.

Akademik Tofiq İsmayılovun fəaliyyəti barədə məlumat verən Natiq Cavadov bildirib ki, görkəmli alim 1974-cü ildən Azərbaycan Elmlər Akademiyasının tərkibində "Kaspi" Elmi Mərkəzinə, 1981-ci ildə bu qurumun bazasında yaradılan Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyinə (KTEİB) və sonradan Milli Aerokosmik Agentliyə rəhbərlik edib. Elmi və məxsusi cihazqayırma sahəsində tanınmış alim olan T.İsmayılovun rəhbərliyi ilə müəssisə kosmik sahə ilə bağlı bir sıra sanballı işlərin həyata keçirilməsinə nail olub. Akademikin xatirəsi daim qəlbimizdə yaşayır və onun ənənələri bu gün də MAKA-nın kollektivi tərəfindən yaşadılır. Buna misal olaraq agentlikdə yaradılan Tofiq İsmayılov muzeyinin fəaliyyətini göstərmək olar.

Müdafiə sənayesi nazirinin müavini Tofiq Rəfiyev nazirliyin rəhbərliyi adından Dünya Aviasiya və Kosmonavtika Günü münasibətilə kollektivi təbrik edib. Tofiq Rəfiyev deyib ki, kosmik sahədəki nailiyyətlər dünyada kosmik elminin və sənayesinin inkişafına böyük təkan verib. Bu sahədə yeni elm və istehsalat sahələri yaranıb. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1974-cü ildən Azərbaycan Elmlər Akademiyasının tərkibində "Kaspi" Elmi Mərkəzinin yaradılması ölkəmizdə yeni elm sahəsinin və milli kadrlar məktəbinin formalaşmasına imkan verib. Belə milli kadrlardan biri də "Kaspi" Elmi Mərkəzinin ilk baş direktoru, bu qurumun inkişafında böyük əməyi olan Tofiq İsmayılov idi. Böyük alim və təşkilatçı olan T.İsmayılov SSRİ-nin aparıcı elmi mərkəzləri ilə qısa müddətdə sıx əlaqələr yaradıb, birgə elmi tədqiqat işləri aparıb. Onun rəhbərliyi dövründə təşkilat inkişaf edib və Agentlik statusuna qədər yüksəlib.

Nazir müavini qeyd edib ki, son 15 ildə müstəqil respublikamızın kosmik sənayesi Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir və bu sahədə mühüm uğurlar əldə olunub. Dövlətimizin başçısının 2009-cu il 17 avqust tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nda əsas vəzifələr dəqiq müəyyənləşdirildi. Respublikamızda digər qurumlarla yanaşı, Müdafiə Sənayesi Nazirliyinin, o cümlədən 2006-cı ildən nazirliyin tabeliyində fəaliyyət göstərən Milli Aerokosmik Agentliyin qarşısında konkret vəzifələr qoyulub və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilib. Əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində digər istiqamətlərlə yanaşı, kosmik sənaye sahəsində də mühüm uğurlara imza atılacaq, Azərbaycanın adı qabaqcıl kosmik ölkələrin sırasında olacaq.

Vaxtilə Tofiq İsmayılov ilə birlikdə çalışmış MAKA-nın əməkdaşları Rafiq Ağamalıyev, İman Əsgərov akademiklə bağlı xatirələrini bölüşüblər. Agentliyin gənc əməkdaşı Günel Əliyeva isə akademikin zəngin elmi irsinin gənc nəslə örnək olduğunu vurğulayıb.

Tofiq İsmayılovun oğlu Heydər İsmayılov atasının xatirəsinə göstərilən dərin ehtirama görə ailəsi adından minnətdarlığını bildirib.

Sonra Tofiq İsmayılovun kabinet-muzeyinin əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub.

Bildirilib ki, muzeydə Tofiq İsmayılova məxsus sənədlər, onun fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və digər şəxsi əşyaları nümayiş olunur. Muzeyin Azərbaycanda kosmik sənaye sahəsində qazanılan nailiyyətlərin, eləcə də bu sahədə mühüm xidmətləri olan T.İsmayılovun fəaliyyətinin gənc əməkdaşlar arasında təbliğində mühüm rol oynayacağı vurğulanıb.

Sonda tədbir iştirakçıları Fəxri xiyabana gələrək akademik Tofiq İsmayılovun xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində təhsil infrastrukturu quruculuğu geniş vüsət alıb

*2019-cu ilin sonunadək respublikamızda 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur*




Dinamik inkişaf edən Azərbaycan Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ötən müddət ərzində möhtəşəm nailiyyətlər qazanıb. Son 15 il ərzində ölkəmizdə bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, Azərbaycan iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən iqtisadi islahatlara paralel olaraq makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, özəl bölmənin inkişafı üçün azad rəqabət və münbit investisiya mühiti yaradılıb, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Təsadüfi deyil ki, nüfuzlu beynəlxalq reytinq agentlikləri də ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində əldə etdiyi uğurları, eləcə də həyata keçirilən kompleks islahatların səmərəli nəticələrini olduqca yüksək qiymətləndirir, müsbət proqnozlar ifadə edirlər. O da qeyd edilməlidir ki, ölkəmizdə ötən müddət ərzində infrastruktur quruculuğu da geniş vüsət alıb, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib, səmərəli nəticələr əldə olunub.

Xüsusilə də, Azərbaycanın bütün bölgələrində infrastrukturun yenilənməsi, o cümlədən abadlıq-quruculuq işləri reallaşdırılıb və bu gün də uğurla davam etdirilir. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində də ölkə miqyasında bəhs olunan istiqamətlərdə qarşıya qoyulan vəzifələr müvəffəqiyyətlə icra edilib. Yeri gəlmişkən, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bu məqamlara toxunan Prezident İlham Əliyev bildirib ki, bu beşillik proqram artıqlaması ilə yerinə yetirildi: **“Bu proqram bizə imkan verdi ki, bölgələrdə infrastruktur layihələrinin icrası daha sürətlə getsin, yüz minlərlə yeni iş yerləri, yeni sənaye müəssisələri yaradılsın, kənd təsərrüfatı daha sürətlə inkişaf etsin. Bir sözlə, regional inkişaf proqramının çox böyük əhəmiyyəti və gözəl nəticələri var”.**

Ümumiyyətlə, Azərbaycanda sosial infrastruktur, o cümlədən təhsil infrastrukturu quruculuğu prosesi davamlı xarakter daşıyır. Dövlətimizin başçısı yuxarıda bəhs olunan nitqində diqqətə çatdırıb ki, keçən il 140-dan çox məktəb tikilib: **“Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur. Qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi, hesab edirəm ki, maksimum iki il çəkə bilər. Bu il və gələn il biz bu proqramı başa çatdırmalıyıq”.**

Beləliklə, ötən illərdə olduğu kimi hazırda da ölkəmizdə təhsil infrastrukturunun yenidən qurulması işi dövlətimizin xüsusi diqqət mərkəzindədir. Məlumdur ki, Azərbaycanda mühüm prioritetlərdən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafı istiqamətində davamlı işlər görülür, həyata keçirilən islahat xarakterli tədbirlər müsbət göstəricilərin əldə olunmasını təmin edir. Yeni Azərbaycanda hər bir sahədə müşahidə olunan dinamik inkişaf təhsil sektorunda da aşkar şəkildə nəzərə çarpır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində, eləcə də müvafiq göstərişləri əsasında atılan addımlar, icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin meydana çıxmasını, yüksək nəticələrin qazanılmasını şərtləndirib. Bu gün təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Təhsil sahəsində həyata keçirilən islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi xüsusi qeyd edilməlidir. Onu da vurğulayaq ki, son 15 ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə Dövlət Proqramı qəbul edilib. Bundan başqa, digər sahələri əhatə edən Dövlət proqramlarında da məktəb tikintisinə böyük diqqət yetirilir. Dövlət proqramları çərçivəsində son 15 il ərzində Bakıda və şəhərətrafı qəsəbələrdə, həmçinin respublikanın bölgələrində 3 mindən çox məktəb tikilib və yaxud əsaslı təmir edilib ki, bu da təhsil sahəsinə çox böyük töhfədir. Ölkə boyu 2004-cü ildən bəri yeni təhsil müəssisələrinin tikilməsi və yaxud mövcud məktəblərin əsaslı şəkildə yenidən qurulması sayəsində 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, o cümlədən də birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb.

Beləliklə, vurğulandığı kimi ölkəmizdə təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Qəsəbə və kəndlərdə yeni-yeni məktəb binaları tikilir, mövcud binalar isə əsaslı təmir olunur. Hazırda bu proses uğurla davam etdirilir. Məsələn, Neftçala rayonunda bu istiqamətdə xeyli iş görülüb. Son illər rayonda 15 yeni məktəb binası tikilib istifadəyə verilib, 3 bina isə əsaslı təmir olunub. Təkcə 2016-cı ildə rayonun ayrı-ayrı kəndlərində 5 modul tipli məktəb binası quraşdırılaraq şagirdlərin ixtiyarına verilib. Dövlətimizin başçısının Sərəncamı ilə ötən il rayonda daha 7 modul tipli məktəb binası quraşdırılıb. Rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov bildirib ki, məktəb binaları rayonun Mirzəqurbanlı, Pirəppə, Qaraqaşlı, Aşağı Sura, Xoltəzəkənd, Xolqaraqaşlı və Qazaxbərə kəndlərində inşa olunub. Ümumi orta məktəblər üçün nəzərdə tutulan binaların beşi 56, ikisi isə 80 şagird yerlikdir. Artıq kəndlərdə quraşdırılan tikililərin yeddisində də inşaat işləri tam başa çatdırılıb, binalar müəllim və şagirdlərin istifadəsinə verilib. Məktəblər yeni inventar və texniki avadanlıqlarla təchiz olunub.

Biləsuvarda da Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla ayrılan vəsait hesabına Biləsuvar şəhər 1 nömrəli tam orta məktəb üçün bina inşa olunur. 1176 şagird yerlik dördmərtəbəli binanın tikintisinə bu ilin yanvarında başlanılıb. Artıq 3-cü mərtəbənin hörgüsü aparılır. Bununla yanaşı, idman zalının dam örtüyü vurulur, daxildə isə suvaq işləri görülür. Məktəb binasında 54 sinif otağı olacaq. Təhsil ocağı müasir istilik sistemi ilə təchiz ediləcək və burada fənn kabinetləri, laboratoriyalar, yeməkxana, idman və akt zalları, kompüter otaqları fəaliyyət göstərəcək. Binanın tikintisi yeni dərs ilinədək başa çatdırılacaq.

Bu istiqamətdə İmişli rayonunda da işlər uğurla davam etdirilir. Belə ki, İmişlidə Muradxanlı kənd ümumi orta məktəbi üçün 54 şagird yerlik modul tipli məktəb binasının inşası başa çatıb. Tikinti Prezident İlham Əliyevin Sərəncamı ilə ayrılan vəsait hesabına aparılıb. Tikinti-quraşdırma işləri Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirilib. Hazırda binanın fasadı rənglənir, ərazidə abadlıq işləri aparılır. Təhsil ocağının binası yaxın günlərdə şagirdlərin istifadəsinə veriləcək.

Rayonun Aranlı kənd 2 nömrəli tam orta məktəb üçün inşa olunan 132 yerlik binanın tikintisi də tamamlanmaq üzəridir. Bu məktəbin də tikinti işləri Prezident İlham Əliyevin imzaladığı Sərəncamla ayrılan vəsait hesabına həyata keçirilir. Təhsil Nazirliyinin sifarişi ilə tikilən məktəb binasının inşasına ötən ilin avqust ayında başlanılıb. Artıq binada hörgü işləri başa çatıb, dam örtükləri vurulub, qapı və pəncərələr quraşdırılıb, suvaq işləri görülüb. Hazırda sinif otaqları, fənn kabinetləri, akt və idman zalları və digər yardımçı otaqlarda elektrik və kommunikasiya xətləri çəkilir, divar və tavanlarda rənglənmə işləri aparılır. Təhsil ocağının dayanıqlı su, istilik və elektrik enerjisi ilə təmin olunması üçün ərazidə su anbarı və qazanxana tikilib, transformator quraşdırılıb. Məktəb binası yeni dərs ilində pedaqoji kollektivin istifadəsinə veriləcək.

Eyni zamanda, dövlətimizin başçısının Sərəncamı ilə ayrılan vəsait hesabına İmişlinin Qızılkənd kənd tam orta məktəbi üçün tikilən 624 şagird yerlik məktəb binasında isə inşaat işlərinin 65 faizi görülüb. Təhsil Nazirliyinin sifarişi ilə tikilən üçmərtəbəli binanın inşasına ötən ilin noyabrında başlanılıb. Artıq binada hörgü işləri yekunlaşıb. Hazırda binanın üçüncü mərtəbəsi tikilir, daxildə suvaq işləri görülür, elektrik və kommunikasiya xətləri çəkilir, qapı və pəncərələrin quraşdırılmasına və dam örtüyünün vurulmasına hazırlıq görülür. Məktəb binasında 24 sinif otağı olacaq. Təhsil ocağı müasir istilik sistemi ilə təchiz ediləcək, fənn kabinetləri, yeməkxana, kompüter otaqları, idman və akt zalları fəaliyyət göstərəcək. Binanın tikintisi yeni dərs ilinədək başa çatdırılacaq.

Təhsil infrastrukturu quruculuğu Quba rayonunda da uğurla həyata keçirilir. Belə ki, hazırda rayonun Alekseyevka kəndində 960 şagird yerlik yeni məktəb binası inşa olunur. Üçmərtəbəli binada 40 sinif, 6 laboratoriya, gənclərin çağırışaqədər hazırlığı, əmək təlimi və kompüter otaqları, idman, akt, oxu zalları, kitabxana və 234 yerlik yeməkxana olacaq. 3500 kvadratmetr sahəni əhatə edən yeni binanın hazırda ikinci mərtəbəsi tikilir.

Kənddə təhsil ocağının inşasına ötən ilin dekabr ayından başlanılıb. Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də tikiləcək. Məktəb binasının tikintisinin yeni tədris ilinə kimi başa çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, Rəhman Məmmədov adına Alekseyevka kənd tam orta məktəbində hazırda 840 şagird təhsil alır. Təhsil ocağında tədris Azərbaycan və rus dillərində aparılır. Dörd min nəfərdən çox sakini olan Alekseyevka Qubanın ən böyük kəndlərindən sayılır.

Naxçıvan Muxtar Respublikası Babək rayonunun Payız kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin tərkibində olan Gülşənabad kəndində də cari ilin martından kompleks quruculuq işlərinə başlanılıb. Burada 144 şagird yerlik tam orta məktəb binası tikilir. Müasir layihə əsasında qurulacaq bina ikimərtəbəli olacaq. Burada müxtəlif fənn kabinələri, laboratoriyalar, şahmat sinfi, elektron lövhəli siniflər fəaliyyət göstərəcək.

**Nardar BAYRAMLI**




# Təhsil Nazirliyi və Baş Prokurorluq Elina Hacıyeva ilə bağlı birgə məlumat yayıb





Bakı şəhəri Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci (r) sinif şagirdi, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihara cəhd etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Təhsil Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, cinayət işi üzrə ibtidai istintaqın davam etdirilməsi Bakı Şəhər Prokurorluğunda yaradılmış istintaq qrupuna tapşırılıb. E.Hacıyevanın təhsil aldığı məktəb və sinfin rəhbərliyi, habelə digər şahidlər müəyyənləşdirilərək dindirilib, müxtəlif növ ekspertizalar təyin edilib.

Hazırda cinayət işi üzrə Elina Hacıyevanın ölümünün səbəbi və müddəti, təcili tibbi yardım xidmətinə vaxtında müraciət olunub-olunmaması, E.Hacıyevaya həkim briqadası tərəfindən yerində və xəstəxanada lazımi tibbi yardımın göstərilib-göstərilməməsi, müayinə və müalicənin diaqnoza uyğun qaydada aparılıb-aparılmaması, onun xəstəxanaya gec çatdırılması ilə ölümü arasında səbəbli əlaqənin olub-olmaması və sair əhəmiyyət kəsb edən halların aydınlaşdırılması üçün komisyon məhkəmə-tibb ekspertizası təyin olunub.

Ekspertizanın keçirilməsində yüksəkixtisaslı, böyük elmi və iş təcrübəsi olan ekspertlərin iştirakının təmin olunması məqsədilə peşəkar mütəxəssislər cəlb edilib.

Cinayət işi üzrə istintaqın obyektivliyinin təmin olunması, şahid dairəsinə qanunsuz təsir göstərilməsi ehtimalının aradan qaldırılması və hadisənin təfərrüatlarının araşdırılması məqsədilə təhsil nazirinin tapşırığına əsasən, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əmri ilə yaradılmış xüsusi komissiya tərəfindən xidməti yoxlama aparılaraq məktəbin direktoru və tərbiyə işləri üzrə direktor müavini ilə əmək müqavilələrinə xitam verilməsi, şagirdin təhsil aldığı sinfin rəhbərinə qarşı müvafiq intizam tədbirlərinin görülməsi, məktəbin psixoloqunun işdən kənarlaşdırılması, məktəbə təcrübəli psixoloqun təyin edilməsi qərara alınıb.

Bununla yanaşı, Bakı Şəhər Prokurorluğunun və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 2019-cu il 6 aprel tarixli məlumatında kütləvi informasiya vasitələrində insanların heysiyyatına toxunan əsassız məlumatların yayılmaması ilə bağlı xəbərdarlıq elan olunmasına baxmayaraq, bəzi internet saytlarında dərc edilmiş müxtəlif sərlövhəli məqalələrdə tədris prosesinin normal həyata keçirilməsinə mənfi təsir göstərən yalan məlumatların, həmçinin yayılması qanunla qadağan edilən informasiyaların daxil edilərək ictimai fikirdə çaşqınlıq yaranmasına səbəb olmaqla konkret faktlara əsaslanmayan, eləcə də yayılması qanunla qadağan edilən informasiyaların məqsədli şəkildə yayılması müəyyənləşdirilib.

Baş Prokurorluq tərəfindən kütləvi informasiya vasitələrinə və sadalanan pozuntulara yol verən şəxslərə, o cümlədən sosial şəbəkə istifadəçilərinə mövcud qanunların tələblərinə riayət etmələrinə dair bir daha xəbərdarlıq olunur ki, E.Hacıyevanın özü, ailəsi və yaxın ətrafı ilə bağlı qeyri-dəqiq, düzgünlüyü yoxlanılmadan paylaşılmış, cinayət işi üzrə həqiqətə uyğun olmayan, istintaq sirri təşkil etməklə, konfidensial informasiya hesab olunan məlumatların yayılmasının və digər istənilən qanunazidd hərəkətlərin qarşısının alınması üçün monitorinq həyata keçirilərək bu cür hərəkətlərə yol verən şəxslər barəsində ən ciddi məsuliyyət tədbirləri görüləcək.

Hazırda cinayət işi üzrə bütün xüsusatların tam və hərtərəfli araşdırılmaqla qanun pozuntularına yol vermiş təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində digər zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azercell “TİBO-2019” beynəlxalq sərgi-forumunda

Azercell Azərbaycan nümayəndə heyətinin tərkibində Belarus Respublikasının Minsk şəhərində keçirilən 26-cı Telekommunikasiya, Rabitə, Təhlükəsizlik və İnformasiya Texnologiyaları üzrə ixtisaslaşdırılmış beynəlxalq “TİBO-2019” sərgi-foruмuna qatılıb. Ölkəmizin dövlət qurumları və özəl şirkətlərinin 15-ə yaxın təmsilçisinin daxil olduğu nümayəndə heyətinə nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə rəhbərlik edib.

16 ölkədən 100 şirkətin nümayəndəsinin qatıldığı forum MDB və Baltikyanı ölkələrin ən böyük İKT tədbirlərindən biri hesab olunur. Azercell nümayəndələrinin də iştirak etdiyi bu sərgi texniki və biznes imkanlarını genişləndirmək üçün yeni əməkdaşlıqlar qurmaq, ən son texnoloji trendlərin müasir cəmiyyət həyatına sirayət edilməsi mövzusunda maraqlı təcrübələrdən bəhrələnmək baxımından böyük əhəmiyyət kəsb edir.



“TİBO-2019” sərgi-forumunda ölkəmiz Milli Pavilyonla təmsil olunur. Pavilyonda ölkəmizin İKT sahəsində əldə etdiyi nailiyyətlər nümayiş etdirilir. Vurğulamaq istərdik ki, ölkəmizin təmsil olunduğu pavilyon “Ən Yaxşı Stend” kimi təltif edilib.

Rəqəmsal aləmin yeniliklərini abunəçilər üçün əlçatan etməyi hədəfləyən Azercell beynəlxalq təcrübələrdən bəhrələnərək bu istiqamətdə fəaliyyətini daha da təkmilləşdirəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 4837**

“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**“AZƏRTAC”,**
**“Azadinform”, “SİA”**
**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU